

Milli azadlıqdan
şirin nemət yoxdur!


YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

12 oktyabr 2024-cü il, şənbə
№ 188 (6774)
Qiyməti 60 qəpik


# Zəfərə 28 gün qalırdı...

## Vətən müharibəsinin 16-cı günü



Bax səh. 2

# Qoşulmama Hərəkatından Azərbaycana növbəti dəstək

## Ölkəmizin COP29 ərəfəsində “Birgə Atəşkəs Çağırışı”na 127 ölkə qoşulub




Bax səh. 2

# Azərbaycana təzyiq etmək əbəsdir!

Bax səh. 3

## İqtisadi Şuranın iclasında...

Oktyabrın 11-də İqtisadi Şuranın sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasda ölkəmizin iqtisadi həyatında mühüm yer tutan məsələlər müzakirə olunub. Müzakirələrdə əsas mövzu Prezident İlham Əliyevin sədrliyi ilə sentyabrın 26-da keçirilən iqtisadi məsələlərə həsr olunmuş müşavirədəki tapşırıqlardan irəli gələn məsələlər olub. Belə ki, “Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları”, ixrac əməliyyatları zamanı əldə olunmuş vəsaitin qanunvericiliyə uyğun olaraq 180 gün ərzində ölkəyə gətirilməsinin vəziyyəti, ixrac edilən malların sektorlar və ölkələr üzrə təsnifatı, fiziki və hüquqi şəxslər üzrə...

Bax səh. 4

## Dayanıqlı sülhün imzalanması...



Bax səh. 3

## Rəqəmsal iqtisadiyyat quruculuğunda yeni mərhələ

Azərbaycan innovasiyalar və rəqəmsal layihələrin həyata keçirilməsində qabaqcıl ölkələrlə sıx əməkdaşlıq edir, ən müasir elektron xidmət və bacarıqları mənimsəmək üçün birgə addımlar atır, eyni zamanda, onları ölkəmizə gətirərək rəqəmsal ekosistemin inkişafına töhfə verməyə səfərbər edir. Oktyabrın 10-11-də Bakıda keçirilən “INMerge İnnovasiya Sammiti” (INMerge Innovation Summit 2024) bu baxımdan rəqəmsal tərəfdaşlığın mühüm platforması kimi innovasiya ekosisteminin inkişafına töhfə verəcək tədbir hesab edilə bilər. Tədbir ölkədə fəaliyyət...

Bax səh. 4

## Azərbaycanı iki yerə bölən Gülüstan müqaviləsi

Tarix boyunca məmləkətimiz ağır sınaqlardan keçib. Azərbaycanın əlverişli coğrafiyada yerləşməsi, zəngin sərvətlərə sahib olması, gözəl təbiəti, münbit torpaqları yadellilərin diqqətini özünə çəkirdi. Qonşuluqda və uzaq xaricdə yerləşən böyük dövlətlər torpaqlarımızı ələ keçirmək, sərvətlərimizə sahiblənmək üçün məkrli planlar qururdular. Buna görə də müxtəlif dövrlərdə yurdumuz qanlı savaşlara şahidlik edib. Xalqımızın zaman-zaman ölüm-dirim mübarizələri aparmasına rəğmən, itkilərimiz də...

Bax səh. 5

## Metroda sıxlıq...

Dünyanın hər yerində olduğu kimi, ölkəmizdə də metro ictimai nəqliyyat vasitəsi kimi mühüm rola malikdir. Etiraf edək ki, əslində, sərnişinlərin bu nəqliyyat vasitəsinə üstünlük verməsinin başlıca səbəbi tıxac və sıxlıq kimi problemlərlə üzləşməyib, mənzil başına daha tez çatmaq istəyidir. Bu baxımdan digər nəqliyyat vasitələrindən fərqli olaraq, metroda ləngimələrlə bağlı problem olmamalı və sərnişinlərin daha əlverişli gedişi təmin edilməlidir.

Son zamanlar isə bunun əksini müşahidə edirik. Metroda ləngimələr, dayanmalar, səbəbsiz fasilələr, sıxlıq, qatarlar arasında dəqiqə intervalının çox olması mütəmadi hal alıb. Məlumdur ki, yay aylarında qatarların dəqiqə intervalı artırılır. Bunun səbəbi isə...

Bax səh. 5

## Zelenskinin Avropa turnesi

Ukrayna Prezidenti Volodimir Zelenski Avropaya səfəri çərçivəsində bir sıra ölkələrin liderləri ilə görüşüb. O, Xorvatiyadan sonra ölkəsinin vəziyyətini və sülh planını müzakirə etmək üçün Böyük Britaniya, Fransa və İtaliya liderləri ilə görüşlər keçirib.

Əvvəlcə Londona səfər edən Ukrayna Prezidenti V.Zelenski Böyük Britaniyanın Baş naziri Strarmerlə görüşdə ölkəsinin Rusiya ilə müharibədə qələbəsini nəzərdə tutan planı təqdim edib. Tərəflər müttəfiqlərlə birlikdə onun üzərində iş aparılması barədə razılıq əldə edib. Ukrayna lideri deyib ki, sözügedən sənəd...

Bax səh. 7

## Hindistan dərvişi

Taqorun lirik qəhrəmanı bütün idealist filosofların, şairlərin, yazıçıların “ləhcəsində” danışır, müəllifini onlarla bir mərtəbəyə, bir dərgaha qaldırır. Bu ilahinamələrdə Platondan tutmuş Nizamiyə, Plotindən Avqustinə, Əttardan Mövlanaya, Nəsimidən Spinozaya, Hüqodan Tolstoya qədər hər kəsin barmaq izini, Rilkedən Ramiz Rövşənəcən neçə-neçə şairin ruh yaddaşını, genlərini tapmaq olar. Taqor öz sevdiyinə ikinci şəxs qismində yanaşsa da, onu öz canından ayrı tutmur, ona haqqın, gözəlliyin mənbəyi, özünə isə onun təcəllası kimi baxır.

**Can necə tərk eyləsin, ey can, səni,**
**Çünki canın canısan, ey canımız! -**

deyən Nəsimi aşağıdakı parçada elə bil yenidən söz...

Bax səh. 7

# Gürcüstanda Şərq-Qərb savaşı



Bax səh. 6

# Qoşulmama Hərəkatından Azərbaycana növbəti dəstək

## Ölkəmizin COP29 ərəfəsində “Birgə Atəşkəs Çağırışı”na 127 ölkə qoşulub




Azərbaycanın dünya miqyasında nüfuzunun və ətraf mühitin qorunmasına töhfələrinin nəticəsidir ki, mühüm beynəlxalq platforma olan COP29-un ölkəmizdə keçirilməsinə dair yekdil qərar qəbul olunub. COP iqlim dəyişikliyi ilə mübarizədə çox vacib və dünyanın ən əhəmiyyətli tədbirlərindən biridir. Ölkəmizin bu il ev sahibliyi edəcəyi COP29 iqlim dəyişikliyi ilə bağlı yeni yanaşmaların yaranmasına və müxtəlif maraqlı tərəflər arasında əməkdaşlığa imkan verəcək. Bu mötəbər tədbirin ölkəmizdə keçirilməsi haqqında verilən qərarın siyasi əhəmiyyəti də böyükdür. Təsadüfi deyil ki, qarşılıqlı razılaşma əsasında Ermənistan da COP-29-un ölkəmizdə keçirilməsini dəstəkləyib. Azərbaycan da bu ölkənin Şərqi Avropa Qrupundan COP-un Büro üzvlüyünə razılıq verib. Dünyanın bütün nüfuzlu dövlətləri və beynəlxalq təşkilatları COP29-un keçirilməsi ilə bağlı Azərbaycana dəstək ifadə edirlər.

### COP29 ərəfəsində sülh çağırışı

İqlim dəyişikliyi kimi aktual çağırışın müzakirə olunacağı tədbir zamanı müharibələrin dayandırılması da mümkün və tam realdır. Bu səbəbdəndir ki, Azərbaycan COP29-un keçirildiyi zaman bütün münaqişələrin dayandırılması və atəşkəsin elan olunması ilə bağlı çağırış edib. Ölkəmizin COP29 ərəfəsində sülh çağırışı etməsi heç də təsadüfi deyil. Dünyada sülhün zəruriliyini Azərbaycan qədər vacib sayan ölkələrin sayı çox azdır. Bu da onunla bağlıdır ki, ölkəmiz müstəqilliyinin ilk illərindən başlayaraq qonşu dövlətin işğalçılıq siyasəti ilə üzləşib. Təxminən otuz il davam edən bu işğal nəticəsində ölkəmiz böyük məhrumiyyətlərlə üzləşib - işğal altına düşən ərazilərimizdə hər şey dağıdılıb, şəhər və kəndlərimiz, tarixi abidələrimiz yerlə yeksan edilib, bir milyondan çox qaçqın və məcburi köçkün soydaşımız humanitar fəlakət yaşayıb.

Müharibənin ən ağır fəsadlarını yaşayan Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam təmin etdikdən sonra müharibə səhifəsini birdəfəlik bağlamaq və gələcəyə baxmaq əzmindən çıxış edir. Ölkəmiz 44 günlük müharibə başa çatandan sonra işğaldan təmizlənən ərazilərində öz gücünə quruculuq-bərpa işlərinə başladı və məğlub Ermənistana beş bənddən ibarət sülh paketi təqdim etdi. Həmin paket sırf beynəlxalq hüquq normalarına istinad olunmaqla hazırlanıb. Azərbaycan o mövqedən çıxış edir ki, 44 günlük müharibənin və lokal xarakterli antiterror tədbirlərinin nəticəsində yaranan yeni reallıqlar regonda sülh, sabitlik və etimad quruculuğu üçün geniş imkanlar açıb. Bundan maksimum dərəcədə istifadə olunmalıdır. Sülh gündəliyinə sadiq qalan Azərbaycan tənzimləmə prosesinin irəliləməsi üçün bütün platformalarda konstruktiv yanaşmalar sərgiləyir. Ölkəmiz qardaş Türkiyə ilə birlikdə 3+3 platformasını irəli sürüb. Azərbaycanın mövqeyi ondan ibarətdir ki, regionun məsələlərini həll etmək üçün kənar ölkələrin dəvət



### Yay və Qış Olimpiya Oyunları zamanı bəzi müharibələrdə atəşkəs elan olunub

edilməsinə heç bir lüzum yoxdur, bu, reallıqda qarşıdurmaları daha da artırır.

Dünya tarixinə nəzər saldıqda da görürük ki, bütün irimiqyaslı qlobal tədbirlər həmişə barışıq fəlsəfəsinə əsaslanıb. Məsələn, Olimpiya hərəkatı ilə müharibə ideyaları bir-birinə tamam ziddir. Olimpiadalar zamanı hətta münaqişə şəraitində olan ölkələrin belə nümayəndələri idman yarışlarına çıxaraq qüvvələrini sınayırlar. Qalib mütləq qaydada rəqibinin əlini sıxır. Bu, sağlam mübarizədir və bütün dünyada barışıq yaratmağa xidmət edir. Eyni zamanda, müxtəlif vaxtlarda baş tutan Yay və Qış Olimpiya Oyunları zamanı dünyanın ayrı-ayrı regionlarındakı müharibələrdə atəşkəs elan olunub.

### Qoşulmama Hərəkatının dəstəyinin siyasi əhəmiyyəti böyükdür

Yeri gəlmişkən, Azərbaycan 2015-ci ildə Birinci Avropa Oyunlarına, 2017-ci ildə isə IV İslam Həmrəyliyi Oyunlarına böyük uğurla ev sahibliyi edib. Həmin ərəfələrdə də Prezident İlham Əliyev bütün müharibələrin dayandırılmasına çağırış etmişdi. COP29 ərəfəsində də belə bir çağırışın edilməsi dünya ictimaiyyəti tərəfindən dəstəklənir. Belə ki, Azərbaycanın Birləşmiş Millətlər Təşkilatının 29-cu İqlim Dəyişmələri Konfransına sədrliyi çərçivəsində Beynəlxalq Sülh Günü kimi qeyd olunan 21 sentyabr tarixində elan etdiyi “Birgə Atəşkəs Çağırışı” Qoşulmama Hərəkatının bütün üzv dövlətləri tərəfindən dəstəklənib. Bu barədə Xarici İşlər Nazirliyinin yaydığı məlumatda deyilir ki, təşəbbüsə indiyə qədər 127 ölkə qoşulub: “Bu təşəbbüs münaqişə və iqlim dəyişməsi arasındakı əlaqənin və ən həssas qrupları qorumaq üçün kollektiv həll yollarının tapılmasının vacibliyini vurğulamaq, eləcə də xalqlar arasında sülhə gətirib çıxara biləcək müsbət impulsu və əməkdaşlığı təşviq etmək məqsədi daşıyır. Çağırışda bütün tərəflərdən COP29 sessiyasının keçirildiyi noyabr ayı ərzində atəşkəsə riayət etmək xahiş olunur və COP29-un fundamental mesajı xüsusunda bəşəriyyətimizin siyasi problemlərin öhdəsindən gələ və həmrəy ola biləcəyinə inam ifadə edilir”. “Birgə Atəşkəs Çağırışı” dövlətlərlə yanaşı, mindən artıq beynəlxalq təsisat, özəl sektor təmsilçiləri, vətəndaş cəmiyyəti qurumları və nüfuzlu ictimai xadimlər tərəfindən də dəstəklənir.

Məlumdur ki, Qoşulmama Hərəkatı BMT-dən sonra dünyada ikinci ən böyük beynəlxalq təsisatdır. Qoşulmama Hərəkatının əsas məqsəd və prinsipləri BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə, eləcə də əsas insan hüquq və azadlıqlarına hörmət etməklə tövsif olunur. Bundan başqa, dövlətlərin ərazi bütövlüyü və suverenliyinə hörmət etmək, böyüklüyündən asılı olmayaraq bütün irqlərin və xalqların bərabərliyini tanımaq, digər dövlətlərin daxili işlərinə qarışmaqdan çəkinmək, BMT Nizamnaməsi çərçivəsində hər bir dövlətin özünü fərdi və ya kollektiv şəkildə müdafiə etməsi hüququna hörmət etmək də bu beynəlxalq qurumun əsas məqsədləri sırasında yer alır. Bu baxımdan, təşkilatın Azərbaycanın çağırışına dəstək verməsi təbii qanunauyğunluqdur. Eyni zamanda, Azərbaycan Qoşulmama Hərəkatına sədrlik etdiyi dörd il ərzində özünün sülhpərvər siyasətini bu müstəvidə geniş təbliğ edib, eləcə də bu təsisatın dünyada baş verən proseslərə çevik reaksiya verməsi üçün ciddi təşkilatlanma işləri aparıb.

### Bu dəstək Fransa və ABŞ-a tutarlı cavabdır

Əlbəttə ki, Qoşulmama Hərəkatının, bütövlükdə, dünyanın 127 dövlətinin Azərbaycanın atəşkəslə bağlı təşəbbüsünə dəstəyi COP29 ərəfəsində ölkəmizə qarşı olan qərəzli beynəlxalq dairələrə tutarlı cavabdır. Çünki bu ərəfədə müəyyən Qərb dairələri, xüsusilə Fransa və ABŞ Azərbaycanın beynəlxalq nüfuzuna zərbə vurmaq üçün qərəzli kampaniya aparırlar. Onlar COP29 kimi mötəbər tədbirin ölkəmizdə keçirilməsini həzm edə bilmir, prosesə əngəl olmağa çalışırlar. Qərbdə erməni diasporunun təsiri altında olan bəzi təşkilatlar da həmin kampaniyada fəal iştirak edirlər. Bütün bunlara rəğmən, Qoşulmama Hərəkatının timsalında demək olar ki, dünyanın sülhsevər, ədalətli cəmiyyətləri Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Həmin qüvvələrin məkrli planları isə hər zaman olduğu kimi iflasa məhkumdur.

Beləliklə, COP29 ərəfəsində dünyanın nəzərləri Azərbaycana yönələcək. İqlim dəyişikliyi kimi aktual çağırışın müzakirə olunacağı tədbir zamanı müharibələrin dayandırılması da mümkün və tam realdır. Əsas məqsəd və birgə hədəflərimiz dünyanı hər cəhətdən daha təhlükəsiz etmək olmalıdır.

***Nardar BAYRAMLI***

---

# Zəfərə 28 gün qalırdı...

***2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.***

**Vətən müharibəsinin 16-cı günü**
**12.10.2020**

• Azərbaycan Ordusu bütün cəbhə boyu əməliyyat üstünlüyünü qoruyub. Ermənistan silahlı qüvvələrinin bölmələri itirdikləri mövqeləri geri qaytarmaq məqsədilə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Cəbrayıl istiqamətlərində bir neçə dəfə kiçik qruplarla Ordumuzun mövqelərinə hücum etməyə cəhd göstəriblər. Həyata keçirilən əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd T-72 tankı, bir neçə avtomobil texnikası sıradan çıxarılıb. Ermənistan silahlı qüvvələrinin 9-cu alayının artilleriya bölməsi Hadrut qəsəbəsi istiqamətindən geri çəkilib, alayın 5-ci taborunun şəxsi heyəti isə hərbi texnikasını döyüş mövqelərində qoyub qaçıb. Qırmızı Bazar istiqamətinə endirilən artilleriya zərbəsi nəticəsində düşmənin yeraltı sığınacağı dağıdılıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə verib.

• Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad edilmiş Süleymanlı kəndinin videogörüntülərini paylaşıb.

• Ermənistan ordusuna məxsus üç pilotsuz uçuş aparatı Azərbaycanın Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib.

• Baş Prokurorluğun məlumatına görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 12-si saat 12:00-dək 41 mülki şəxs həlak olub, 207 nəfər xəsarət alıb, 1185 ev, 57 çoxmənzilli yaşayış binası və 148 mülki obyekt yararsız vəziyyətə düşüb.

Düşmənin atəşi nəticəsində Tərtərdə məcburi köçkünlər üçün salınan yaşayış kompleksinə böyük ziyan dəyib.

**Vətən müharibəsinin 17-ci günü**
**13.10.2020**

• Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 “Qrad” YARS, 1 ədəd “Tor-M2KM” ZRK, 1 ədəd ZSU-23-4 “Şilka” özüyeriyən zenit qurğusu, 2 ədəd PDM-2, 3 ədəd 2A36 “Qiasint-B” topu, 1 ədəd KS-19 zenit topu, 1 ədəd D-20 haubitsa topu, 3 ədəd PUA, bir neçə avtomobil texnikası sıradan çıxarılıb. Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının müdafiə sahəsində mövqe tutan şəxsi heyəti məhv edilib, 1-ci motoatıcı alayın bir bölüyədək canlı qüvvəsi pusquya salınıb. Əsgəran istiqamətində hərəkət edən 4-cü motoatıcı alayın avtomobil texnikası kolonu və Ermənistanın Sisian yaşayış məntəqəsi istiqamətindən işğal altındakı ərazilərimizə doğru hərəkət edən könüllülərdən ibarət bir qrup atəş zərbəsi ilə məhv olunub.

• Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin “Haber Türk” televiziya kanalına müsahibə verib.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 13-ü saat 12:00-dək 42 mülki şəxs həlak olub, 206 nəfər isə xəsarət alıb, 1479 ev, 66 çoxmənzilli yaşayış binası və 241 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• Azərbaycan əsgəri Hünər Məmmədov torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdə silahdaşları Elvin Mədətov və Rüfət Əsədullayevin köməyi ilə düşmənin 7 tankını, 1 PDM-ni, silah-sursat dolu 1 avtomobil texnikasını və 2 müşahidə məntəqəsini məhv edib.

• Müdafiə Nazirliyi işğaldan azad edilən Hadrut qəsəbəsinin videogörüntülərini yayıb.

**Vətən müharibəsinin 18-ci günü**
**14.10.2020**

• Rəşadətli Azərbaycan Ordusu Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndlərini işğaldan azad edib. Bu barədə Prezident İlham Əliyev rəsmi tviter səhifəsində paylaşım edib.



• Prezident İlham Əliyev Fransanın “France 24” televiziya kanalına müsahibə verib.

• Azərbaycan Ordusu gecə və səhər saatlarında Ermənistan silahlı qüvvələrinin ümumilikdə üç ədəd “Elbrus” raket qurğusunu məhv edib.

• Müdafiə Nazirliyi düşmənin əməliyyat-taktiki raket komplekslərinin mülki əhalimizi və yaşayış məntəqələrimizi atəşə tutmaq məqsədilə start mövqeyinə çıxarılmasının videogörüntüsünü yayıb.

• Cəbhənin Füzuli rayonu istiqamətində Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı bölmələrimiz tərəfindən vurulub.

• Müdafiə Nazirliyi işğaldan azad olunan Cəbrayıl şəhərinin videogörüntüsünü paylaşıb.

• Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 14-ü saat 12:00-dək 43 mülki şəxs həlak olub, 214 nəfər isə xəsarət alıb, 1505 ev, 66 çoxmənzilli yaşayış binası və 277 mülki obyekt yararsız vəziyyətə düşüb. Bu barədə Baş Prokurorluq məlumat yayıb.

• Ermənistan Azərbaycan jurnalistlərini atəşə tutub .

• Baş Prokurorluq: Düşmənin Tərtər rayonunun yaşayış məntəqələrini atəşə tutması nəticəsində 8 nəfər xəsarət alıb.

# Dayanıqlı sülhün imzalanması...

## Ermənistan tarixi şansı əldən verməməlidir

## İrəvanın müttəfiqləri normallaşma prosesinin perspektivlərinə təhlükə yaradır

Ermənistanın bir müddətdir ki, apardığı "sülh təbliğatı" manipulyasiyadan ibarətdir. Bu fakt bütün ştrixləri ilə ortadadır - İrəvanın özünü beynəlxalq aləmə "sülhpərvər" qismdə təqdim etməyə çalışması görüntü xarakteri daşıyır. Məsələnin mahiyyəti isə tamam başqadır - sülh sənədindən razılaşdırılmamış bəndlər çıxarılır və İrəvan məhz bu "yarımçıq sülhü" imzalamağa can atır. Bu isə təbii olaraq Azərbaycanın maraqlarına cavab vermir. Sözügedən müddəaların sənəddən çıxarılması sülh sənədini zəif, dayanıqsız və hər an ləğv ediləsi hala gətirir. Çünki Ermənistanın sülh müqaviləsindən "çıxardığı" həmin müddəalar olduqca vacib şərt kimi çıxış edir.



### Ermənistan beynəlxalq ictimaiyyəti aldatmağa çalışır...

Yeri gəlmişkən, Almaniyada işgüzar səfərdə olan Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov "TV Berlin" telekanalına müsahibəsində də bu məsələyə toxunub - E.Əmirbəyov Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı fikirlərini bölüşüb. O vurğulayıb ki, Ermənistanın yarımçıq, tamamlanmamış sülh sazişi mətni imzalamaq üçün irəli sürdüyü tələblər beynəlxalq ictimaiyyəti aldatmağa və həqiqi niyyətlərini gizlətməyə çalışmaqdan başqa bir şey deyil.

Vurğulandığı kimi, bu, Ermənistanın növbəti "sülh imitasiyası"dır. 30 ilə yaxın Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan hazırkı məqamda beynəlxalq diqqətin bölgəyə yönəldiyini anlayır - xüsusilə, Azərbaycanın regionda formalaşdırdığı yeni siyasi reallıqlar və COP29 kimi mühüm bir tədbirə Bakının ev sahibliyi etməsi Azərbaycanı diqqət mərkəzinə salır:

- Bakıya gələcək nümayəndə heyətləri əsl həqiqəti yerindəcə öyrənmək imkanı qazanacaq;

- Ermənistanın qeyri-konstruktiv mövqeyi bütün predmetləri ilə ifşa olunacaq;

- İrəvanın sülhə qarşı tutduğu mövqe, revanşizm axtarışında olması faktı üzə çıxacaq;

- Hətta Ermənistanı sülhdən yayındıran güclər də ortadakı məsuliyyəti bölüşməli olacaq.

İrəvan bütün bunları önləmək, yenə də dünya birliyini aldatmaq üçün belə bir varianta əl atır. Ard-arda Ermənistanın siyasi rəhbərliyinin "sülhlə bağlı çağırışlar" səsləndirməsi guya vəziyyətin belə olmadığını, İrəvanın sülh üçün can atdığının görüntüsünü yaratmaqdan ibarətdir. Elçin Əmirbəyov müsahibəsində bildirib ki, əvvəlcədən reallığa uyğun olmayan təkliflərin irəli sürülməsi, həm danışıqlar prosesini uzatmaq, həm də nəticə əldə edilmədiyi üçün məsuliyyəti Azərbaycanın üzərinə atmaq cəhdidir.

### Normallaşma prosesini süni şəkildə uzatmaq istəyi...

"Yarımçıq" müqavilə "təklifi" həm də Ermənistanın destruktiv addımlarını, ona olan dəstəyin, silahlanmanın və digər sülhdən yayınma komponentlərinin pərdələnməsi üçündür. Ermənistan yarımçıq sülh təklifi irəli sürməklə həm Azərbaycan torpaqlarına rəsmi iddiasını davam etdirəcək, həm də arxa planda Qərbin maraqlı qüvvələri tərəfindən gücləndiriləcək. Beləliklə, sülh sənədindəki vacib müddəaların çıxarılması ilə yanaşı, Ermənistanın qeyri-konstruktivliyini sübut edəcək faktlar da kifayət qədərdir. Sürətli silahlanma ilə paralel Qərbin açıq maliyyə dəstəyi, "Sülh Fondu", USAID kimi qurumların əli ilə İrəvana ötürülən pullar, erməni lobbisinin köməyi ilə planlaşdırılan qeyri-hüquqi addımlar, hətta Qərb ölkələrinin Ermənistanla birgə "hərbi təlimləri və Azərbaycanla şərti sərhəddə əsgər toplanması, kəşfiyyat işlərinin görülməsi sülhün yalnız görüntü xatirinə ortaya atıldığını göstərir. Ermənistan artıq sülh niyyətindən uzaqlaşmaq, daha doğrusu, yayınmaq istəyir. Erməni lobbisinin aktiv müdaxiləsi ilə Azərbaycana qarşı yenidən Qarabağ mövzusunun gündəmə gətirilməsi, bu kimi təxribatçı addımlar, separatizmə açıq dəstək kontekstləri Ermənistanın fərqli fikrə düşdüyünü bir daha təsdiqləyir. Prezidentin xüsusi nümayəndəsi müsahibəsində Ermənistanın hərbi güclənməyə doğru yönələn kursunu və beynəlxalq arenada diplomatik qarşıdurmasını da diqqətə çatdırıb. Bildirib ki, bu, Ermənistanın normallaşma prosesini süni şəkildə uzatmaq istəyini göstərir. O qeyd edib ki, Ermənistanın müttəfiqləri tərəfindən aldığı iqtisadi, diplomatik və hərbi dəstək "komfort zonasının" yaranmasına səbəb olur, bu isə İrəvanı danışıqlarda aktiv iştirak motivasiyasından məhrum edir və normallaşma prosesinin perspektivlərinə təhlükə yaradır.

### Ərazi iddiaları həll olunmadığı təqdirdə...

E.Əmirbəyov vurğulayıb ki, Ermənistanın Azərbaycan torpaqlarına qarşı davam edən ərazi iddiaları həll olunmadığı təqdirdə, qarşıdurmanın əsas səbəbini aradan qaldırmaq və iki ölkə arasında davamlı, etibarlı və geri dönüşsüz bir sülhə nail olmaq mümkün olmayacaq: "Top Ermənistanın tərəfindədir. Ümid edirik ki, Ermənistan münasibətlərimizdə faciəli səhifəni birdəfəlik çevirmək üçün tarixi şansı əldən verməyəcək".

Bəli, 2022-ci ilin martında Azərbaycanın təşəbbüsü ilə ortaya çıxan sülh prosesi bölgə üçün yeni bir perspektiv vəd edir. Sülhün davamlı, dayanıqlı, hüquqi cəhətdən təkmil olması üçün isə ortada olan şərtlər məlumdur - ilk növbədə Ermənistanın konstitusiyasında məlum dəyişikliklər edilməlidir. Ermənistanın Müstəqillik Bəyannaməsinin preambulasında "Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağ Milli Şurasının 1 dekabr 1989-cu il tarixli "Ermənistan SSR-ə yenidən birləşmək haqqında" birgə qondarma qərar yer almaqdadır. Yəni rəsmi olaraq Ermənistan hələ də 4.4 min kv km-lik Azərbaycan torpağına iddia ortaya qoyur. Bu düzəliş olmadan sülhün imzalanması isə mümkün deyil - bu "yarımçıq sülh" ola bilər.

İndiki halda Ermənistan seçim qarşısındadır - ya, Azərbaycanın irəli sürdüyü şərtlər daxilində - konstitusiya dəyişikliyi başda olmaqla, sülhü imzalamaqla regional inkişaf prosesinə qoşula, mühüm yeni iqtisadi-ticari layihələrdə yer ala bilər. Ya da, özünün qeyri-konstruktiv mövqeyinə, manipulyasiya siyasətinə "sadiqlik" nümayiş etdirərək yenə də dalan dövlət stasunda qalacaq. İrəvan alamalıdır ki, ona "dəstək" verən Qərb yalnız və yalnız öz marağını düşünür. Onlar üçün Ermənistanın mənafeyi adlı bir mövhum yoxdur...

***P.İSMAYILOV***

---

# Azərbaycana təzyiq etmək əbəsdir!

## Vaşinqton isə "siyasi rıçaq" axtarışındadır...

**"Vahid qütb olmaq" prinsipini XXI əsr üçün əsas prioritetinə çevirmiş "kollektiv Qərb" özünün geocoğrafi mənasını geopolitik mənaya dəyişib. Öz maraqlarını təmin etmək üçün fərqli suveren ölkələrə göstərilən təzyiqlər, müdaxilə mexanizmləri və təsirlər də fərqlidir - bəzi dövlətlərdə bu, güc və hərbi yola, bəzi dövlətlərdə "yumşaq güc"ə, bəzi dövlətlərdə isə "reformatik cəmiyyəti", "demokratik dünya", "hüquq və azadlıqların keşikçisi", "siyasi orbitr", "siyasi məhbusların müdafiəçisi" kimi fərqli adlar altında qurulan antitəbliğata söykənir. Açıq hərbi müdaxiləyə imkanı olmadığı, "yumşaq güc"ün işləmədiyi suveren subyektlərə məhz sonuncu yolla müdaxilə imkanı araşdırılır. Beləliklə, "Qərb neokonsolidasiyası" XXI əsr üçün özünün strateji-taktiki proqramlarını ortaya qoyur -aktual olan çağırışlar, mühüm qlobal təşəbbüslər, tədbirlər, beynəlxalq miqyaslı toplantılar Qərb üçün "fürsət anı" sayılır. Qərbin nankor və riyakar siması məhz bu kimi anlarda üzə çıxır...**

### Korporativ marağa əsaslanan "sanksiya" siyasəti...

Diqqət yetirsək, bir çox hallarda "Qərbin marağı" sanksiyalar, qərarlar və ya qətnamələr üzərindən yürüdülür - bu amillər Qərbin əsrlərlə davam etmiş "təsir imkanlarının" yeni istiqamətlərini müəyyənləşdirir. "Beynəlxalq təsisatın" və ya "parlamentin" qərarı adı altında xüsusi maraq qruplarının işləməsi bütün çılpaqlığı ilə ortadadır. Qeyri - rəsmi struktura malik, lazım olmayan anda "tövsiyyəçilikdən" uzağa getmədiyi iddia edilən, amma gərəkdiyində "sanksiyaya" çevrilən müraciətlər Qərbin əsl simasını ortaya qoyur. Bir sözlə, Qərb özünə lazım olmadığı halda məsələyə "kor", özünün maraqları müzakirə predmeti olanda "iti" bucaq altında yanaşma nümayiş etdirir.

Azərbaycana münasibətdə də bəzən bu kimi halları aydın görürük: məsələn, ABŞ konqresi tərəfindən qəbul edilən "Azadlığa Dəstək Aktı"nın 907-ci maddəsinə düzəliş 2001-ci ildə dayandırıldı. Adıçəkilən sanksiya 2001-ci ildə, ABŞ-ın öz yüklərini hava, quru və dəniz yolu ilə Azərbaycan ərazisindən Əfqanıstana tranzit daşımalı olduğu vaxtı aradan qaldırılmışdı. ABŞ Əfqanıstandan qaçana qədər hər il bu sanksiyalar ləğv edildi - yalnız ondan sonra sanksiyalar yenidən tətbiq olunmağa başladı. Halbuki bu düzəlişin özü başlanğıcdan səhv və ədalətsiz qərar idi - işğala məruz qalan ölkə olduğu halda, Azərbaycana birbaşa dövlət yardımı məhz bu sanksiya ilə qadağan edilirdi. İşğalçı, təcavüzkar Ermənistan isə bu sanksiyadan kənarda qalmışdı...

### Vaşinqtonun məkrli yolu...

İndiki məqamda isə ABŞ başqa bir "istiqamətlə" təsir etməyə niyyətlənib. Oktyabrın 3-də ABŞ-ın 60-a yaxın ermənipərəst konqresmeninin Dövlət katibinə müraciəti ortadadır - bu dəfə COP29 iqlim sammiti ərəfəsində yenidən böhtan və yalanlarla silahlanaraq Azərbaycana qarşı səlib yürüşünə başlayırlar. Koordinat isə eynidir: Qərb yenə özünün qondarma "istinad priyomlarını" işə salır - Azərbaycan "siyasi məhbus" məsələsi kimi yalan və şər məsələ ilə şantaj edilir. Ermənistanın "yarımçıq və məqsədli" sülh "çağırışlarının" əsl üzünün ifşa edilməsi prosesi hədəfə alınır. ABŞ-ın bu yalan iddialardan yalnız və yalnız "siyasi dəyənək" kimi istifadə etməyə çalışdığı bütün komponentləri ilə ortadadır. Buna Azərbaycan dövləti və cəmiyyəti öz etirazını bildirib. Oktyabrın 8-də Moskvada "Rossiya-1" televiziya kanalına müsahibəsində Prezident İlham Əliyev bildirmişdi ki, sanksiyalar siyasətinin ümumiyyətlə, mövcud olmağa haqqı yoxdur, xüsusilə də bu sanksiyalar qeyri-qanuni olduqda və tamamilə əsassız və selektiv şəkildə tətbiq edildikdə: "Ona görə də biz istənilən sanksiyalara qəti şəkildə qarşıyıq və hesab edirəm ki, beynəlxalq ictimaiyyət öz mövqeyini vahid qaydada bildirməlidir. Biz milli səviyyədə özümüzə qarşı, həm də təkcə bizə deyil, tətbiq olunan bütün sanksiyalara münasibətdə bu mövqeyi ifadə edirik".

Paralel olaraq Azərbaycanın Milli Məclisin deputatları məsələ ilə bağlı xarici işlər naziri Ceyhun Bayramova müraciətlərində bildirmişdilər ki, Azərbaycana qarşı irqi ayrı-seçkiliyi ehtiva edən, böhtanla dolu, dialoq ruhuna zidd olan, müharibə cinayətkarlarının azadlığa buraxılmasına və Ermənistanın hərbiləşdirilməsinə çağırış edən bu müraciət qəbuledilməzdir, beynəlxalq hüquqa ziddir və ABŞ-ın ikitərəfli münasibətlərin rəvan şəkildə davam etdirilməsində maraqlı olmadığını göstərir. Azərbaycanlı deputatlar Azərbaycan və ABŞ arasında münasibətlərin yenidən nəzərdən keçirilməsi bəzi addımların həyata keçirilməsini xahiş etmişdilər ki, onların arasında qüvvədə olan ikitərəfli müqavilələrə, ələlxüsus, 1997-ci ildə imzalanmış "Azərbaycan Respublikası və ABŞ arasında gələcək hərbi və müdafiə əlaqələri haqqında" Birgə bəyanata və 2013-cü ildə imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında avadanlığın alınması və qarşılıqlı xidmət haqqında" Sazişə xitam verilməsi də var. Beləliklə, ABŞ-ın ölkəmizə qarşı apardığı riyakar siyasi xətt bütün detalları ilə cəmiyyət tərəfindən görülür və pislənilir.





### Konqresmenlər ölkəsinin rəhbərliyindən Ermənistanı silahlandırma səbəbini niyə soruşmur?

Halbuki, ABŞ Ermənistanı silahlandırmaqla, özünün hərbi kontingentini bu ölkədə yerləşdirməklə, İrəvanı hərbi təlimlərə cəlb etməklə sülhü təhdid etməkdədir. ABŞ silahlı qüvvələrinin ayrı-ayrı bölmələrinin təlimatçılarının Ermənistana ard-arda etdiyi səfərlər, son aylarda mütəmadi hal almış "hərbi təlimlər", şərti Azərbaycan - Ermənistan sərhəddinə yığılmış əsgərlər və kəşfiyyat qurğuları, Aİ-nin "müşahidə missiyası" altında fəaliyyət göstərən Qərbin xüsusi hazırlanmış qrupunun sərhəddəki qaranlıq fəaliyyəti bölgədə sabitliyi hədəfə alır - ABŞ konqresmenləri niyə bu məqamlar haqqında sorğunu öz dövlətinin rəhbərliyinə yönləndirmir? Və ya ABŞ-ın Azərbaycandakı səfirinin real faktlara söykənən xəbərləri təkzib etməməsi, suallardan yayınması fakt deyilmi? - xatırladaq ki, ABŞ-ın Ermənistana iki təyyarə silah-sursat, eləcə də canlı əsgəri qüvvə gətirməsi ilə bağlı suala ABŞ-ın Azərbaycandakı səfiri aydın izahat verməmişdi və cavabını yayındırmışdı?

Deməli ki, Ermənistanla sülh prosesinin, normallaşma prosesinin tam baş çatması ABŞ-ın marağına cavab vermir - bu səbəbdən də, Vaşinqton COP29-u, yalançı "siyasi məhbus" oyununu "əlində alət edərək" yeni oyunlara start vermək niyyətindədir...

### ABŞ-ın sabotaj cəhdi ...

ABŞ-ın COP29 kimi qlobal bir tədbirdən fürsət kimi istifadə edərək özünün çirkin niyyətlərini həyata keçirməyə çalışması beynəlxalq aləm tərəfindən də pislənir - bir sıra ölkələr Azərbaycana qarşı olan bu münasibəti ədalətli saymırlar. Məsələn, Rusiya Xarici İşlər Nazirliyinin (XİN) rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib ki, Qərb ölkələri iqlim dəyişmələri mövzusundan siyasi rıçaq kimi istifadə edirlər, lakin Azərbaycana təzyiq etmək əbəsdir. Onun sözlərinə görə, hər il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının növbəti Tərəflər Konfransı ərəfəsində Vaşinqton sədrlik edən dövlətə təzyiqi artırır. "Bu, klassik taktikadır. Biz bunu 2022-ci ildə Şarm Əl-Şeyxdəki Tərəflər Konfransı ərəfəsində müşahidə etmişik. Həmin vəziyyət keçən il Dubayda da baş vermişdi. İndi biz uydurma bəhanə ilə Azərbaycana təzyiqin necə artdığını müşahidə edirik", - deyə diplomat qeyd edib.

"Azərbaycana təzyiq etmək əbəsdir. Müxtəlif məsələlərlə bağlı Azərbaycana dəfələrlə təzyiqlər göstərilib. Söhbət təkcə suveren dövlətlərə təzyiqin yolverilməzliyi ilə bağlı prinsipial mövqedən getmir, həm də ondan gedir ki, bu mövzu real olaraq mütəxəssislərin cəlb olunmasını tələb edir. Bu, ABŞ-ın sadəcə olaraq, özünə faydalı olan bir qərarı qəbul etdirmək məqsədilə hər kəsin başına vuracağı növbəti bir siyasi "dəyənək" olmamalıdır. Ortaya atılmış bu cür xəbərlərdən iqlim dəyişmələri ilə bağlı populyar mövzu ətrafında süni şəkildə ajiotaj yaratmaq üçün istifadə olunur", - deyə Rusiya XİN-in rəsmi nümayəndəsi bildirib.

Zaxarovanın fikrincə, reallıqda ABŞ və Qərb ölkələri iqlimin maliyyələşdirilməsi sahəsində yeni kollektiv kəmiyyət məqsədinə dair razılaşmanı, həmçinin beynəlxalq karbon vahidləri bazarının yaradılması məsələsi üzrə konsensusa nail olunmasını faktiki olaraq sabotaj edirlər.

***P.İSMAYILOV***

# İqtisadi Şuranın iclasında...

## Hökumət üzvləri valyuta vəsaitlərinə nəzarətlə bağlı məsələləri müzakirə ediblər

Oktyabrın 11-də İqtisadi Şuranın sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasda ölkəmizin iqtisadi həyatında mühüm yer tutan məsələlər müzakirə olunub. Müzakirələrdə əsas mövzu Prezident İlham Əliyevin sədrliyi ilə sentyabrın 26-da keçirilən iqtisadi məsələlərə həsr olunmuş müşavirədəki tapşırıqlardan irəli gələn məsələlər olub. Belə ki, "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları", ixrac əməliyyatları zamanı əldə olunmuş vəsaitin qanunvericiliyə uyğun olaraq 180 gün ərzində ölkəyə gətirilməsinin vəziyyəti, ixrac edilən malların sektorlar və ölkələr üzrə təsnifatı, fiziki və hüquqi şəxslər üzrə ölkəyə qaytarılmayan valyuta vəsaitləri, xarici valyuta vəsaitlərinin xaricdən qaytarılmaması ilə əlaqədar inzibati-cinayət məsuliyyəti tədbirləri barədə geniş müzakirələr aparılıb.

Hazırda hökumətin diqqətində olan əsas detallardan biri Azərbaycandan xaricə pul köçürmələri və ixrac dəyərinin tam qaytarılması ilə bağlıdır. Burada əsas məqam ixrac əməliyyatları zamanı əldə olunmuş vəsaitin 180 gün ərzində ölkəyə gətirilməsi, fiziki və hüquqi şəxslər üzrə ölkəyə qaytarılmayan valyuta vəsaitlərinə nəzarətin artırılmasıdır.

### Bəzi ixracatçıların fürsətçilliyi...

2024-cü ilin ötən ayları üzrə pul əməliyyatlarının rəsmi statistikası göstərir ki, Azərbaycandan xaricə pul köçürmələrində artım müşahidə olunmaqdadır. Cari ilin 7 ayında Azərbaycandan xaricə 343 milyon dollar pul köçürülüb. Xaricdən ölkəmizə köçürülən vəsaitlərin həcminin azalmasına baxmayaraq, xaricə köçürmələr 34,7 faiz artıb. Bu isə Azərbaycandan xaricə pul köçürmələrinin müqabilində ixracın dəyərinin ölkəyə tam qaytarılmadığına dəlalət edir. Yəni bəzi fiziki şəxslər və sahibkarlıq subyektləri ixrac etdikləri mal və xidmətlərin real ixrac dəyərinə uyğun həmin vəsaiti geri qaytarmır, müxtəlif sahələrə yönəldərək faktiki olaraq öz mənfəətləri naminə Azərbaycanın pul siyasəti hədəflərinə, valyuta tənzimlənməsi qaydalarına qarşı çıxırlar. Ona görə də, mövcud vəziyyət həmin əməliyyatlarla bağlı proseslərə nəzarətin daha da gücləndirilməsini zəruri edir.

Azərbaycanın pul siyasəti hədəflərində daha çox valyutanın ölkədə qalması başlıca yer tutur, hökumətin ixracla məşğul olan biznesə dəstəyi, onlara təşviqedici alətlərlə güzəştləri, digər motivasiyaların da əsas məqsədi onların ixrac etdikləri malların dövriyyəsini artırmaq, ölkəyə daha çox valyuta gəlməsini təmin etməkdir. Bu proses müvafiq qaydalar əsasında tənzimlənir. Xarici ölkələrə pul köçürmələri Azərbaycan Respublikasında rezident və qeyri-rezidentlərin valyuta əməliyyatlarının rejimi haqqında qaydalara əsasənır. Həmin qaydalar "Valyuta tənzimi haqqında" Qanununa əsaslanır və müvafiq olaraq rezident və qeyri-rezidentlərin Azərbaycanın kredit təşkilatları vasitəsilə aparılan valyuta əməliyyatlarının rejimini tənzimləyir. Qaydalara əsasən, malların, işlərin və xidmətlərin idxalı və ixracı üzrə əməliyyatların müddəti, yəni 180 gün dövr müəyyən olunub. Həmin əməliyyatların hər birinin müqavilə, kontrakt və ya əqd üzrə mənşəyini təsdiq edən sənədlərin hər biri Azərbaycanın gömrük orqanlarının elektron sistemində, eləcə də bank sisteminin reyestrində öz əksini tapır. Eləcə də qeyd edilən əməliyyatlar üzrə ölkədən çıxarılmış valyutanın dəyəri müvafiq qurumların e-sistemində görünür, habelə həmin malın satışından əldə edilmiş valyutanın dəyər və miqdarı ölkənin xarici ticarət balansından aydın olur.

Beləliklə, mövcud çərçivəyə əsasən, sahibkarlar ixrac etdikləri malların satışından qazandıqları valyutanı 180 gün müddətinə geri qaytarmasını təmin etmirlərsə, həmin fiziki və hüquqi şəxslər barədə müəyyən şübhələr meydana çıxarır, bu, kapitalın ölkədən çıxarılması anlamına gəlir.

### "Çirkli pulların yuyulması"na qarşı qətiyyətli mübarizə



Bütün ölkələrdə "çirkli pulların yuyulması" məqsədləri ilə transmilli əməliyyatlardan istifadə edilməsi hallları bank ictimaiyyətinə yaxşı məlumdur. Mərkəzi Bank beynəlxalq təcrübəyə əsaslanaraq cinayətkarlıq yolu ilə əldə edilmiş gəlirlərin leqallaşdırılması, "çirkli pulların yuyulması" üçün bank sistemindən istifadə edilməsinin müvafiq surətdə qarşısının alınmasına çalışır. Eyni zamanda, Azərbaycan Respublikasının müvəkkil bankları valyuta nəzarəti agenti olaraq, səlahiyyətləri çərçivəsində rezident və qeyri-rezidentləri tərəfindən həyata keçirilən valyuta əməliyyatlarının mövcud qanunvericiliyin, o cümlədən Mərkəzi Bankın normativ xarakterli aktlarının tələblərinə cavab verməsinə nəzarət edir. Ona görə də, çıxarılan kapitalın mövcud qaydalara əməl edilmədən geri qaytarılması MB və digər orqanlarda əsaslı şübhələr yaradaraq bu sahədə güclü nəzarət siyasətinin həyata keçirilməsini tələb edir. Bu kontekstdən baxdıqda həmin şəxslərin timsalında ümumi siyasət tədbirləri çərçivəsində valyuta nəzarətinin artırılması olduqca məntiqli və düzgün qərar hesab edilməlidir.

Qeyd edək ki, Mərkəzi Bankın uzaqgörən və çevik siyasəti sayəsində monetar tənzimləmə funksiyaları son illərdə gücləndirilib. Ötən il qeyri-rezidentlərin apardığı pul əməliyyatlarının mənşəyi ilə bağlı bir sıra yeni tədbirlər həyata keçirilib ki, bu siyasət "çirkli pulların" yuyulmasının qarşısının alınmasında hökumətin qətiyyətli iradəsini göstərir. Həmçinin ötən il MB tərəfindən "Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatlarının aparılması Qaydaları"nda müvafiq dəyişikliklər edilməsi sayəsində fiziki şəxslərin məqsədli köçürmələrinə nəzarət artırılıb. Dəyişikliklərə əsasən, fiziki şəxslərin şəxsi məqsədlər üçün ölkə xaricinə köçürdükləri məbləğlər üzrə gündəlik limitlər ləğv edilib, köçürmə formasından asılı olmayaraq 20 min dollar ekvivalentindədək aylıq limit müəyyən edilib. Ticarətlə məşğul olan bazar iştirakçıları üçün illik müvafiq normalar müəyyənləşdirilib. Bütün bunlar şəffaflıq və hesabatlılıq baxımından monetar siyasət tədbirlərinin daha da güclənməsinə xidmət edir.

### "Cənub Qaz Dəhlizi" QSC öz öhdəliklərini tam yerinə yetirir

İqtisadi Şuranın iclasında ikinci məsələ "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti ilə bağlı müzakirələri əhatə edib. Bu prosesdə də Azərbaycan hökuməti öz intizamlı fəaliyyəti ilə seçilir, adıçəkilən qaz dəhlizinin səhmdarları sırasında öz öhdəliklərini tam yerinə yetirir. Respublikamız Cənub Qaz Dəhlizində iştirak edən səhmdar kimi öz borcunu tam şəkildə geri qaytarmaqla digər səhmdarlar arasında öz nümunəvi modelini təsdiqləyib. "Cənub Qaz Dəhlizi" QSC 2024-cü il üzrə ehtiyaclarının maliyyələşdirmə mənbələrini də tam şəkildə təmin etməkdədir. Belə ki, "Şahdəniz", "Cənubi Qafqaz Boru Kəməri", Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Boru Kəməri (TAP) layihələrindən əldə olunan vəsaitlər və yığılmış pul vəsaitləri hesabına maliyyə büdcəsi formalaşıb. Bu müsbət maliyyə intizamı "Fitch Ratings" beynəlxalq reytinq agentliyi tərəfindən "Cənub Qaz Dəhlizi" QSC-nin yüksək səviyyəli təminatsız avrobondlarının xarici valyutada uzunmüddətli reytinqi - "BB+"la qiymətləndirilməsinə səbəb olub. Hazırda QSC digər tərəfdaş səhmdarlarla Cənub Qaz Dəhlizinin genişləndirilməsi üzrə strateji planlarını nəzərdən keçirir.

Qeyd edək ki, İqtisadi Şuranın iclasının yekununda yuxarıda vurğuladığımız məsələlərlə bağlı qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

*E.CƏFƏRLİ*

# Rəqəmsal iqtisadiyyat quruculuğunda yeni mərhələ

## "INMerge İnnovasiya Sammiti" rəqəmsal ekosistemin inkişafında yeni imkanlar açır

Azərbaycan innovasiyalar və rəqəmsal layihələrin həyata keçirilməsində qabaqcıl ölkələrlə sıx əməkdaşlıq edir, ən müasir elektron xidmət və bacarıqları mənimsəmək üçün birgə addımlar atır, eyni zamanda, onları ölkəmizə gətirərək rəqəmsal ekosistemin inkişafına töhfə verməyə səfərbər edir. Oktyabrın 10-11-də Bakıda keçirilən "INMerge İnnovasiya Sammiti" (INMerge Innovation Summit 2024) bu baxımdan rəqəmsal tərəfdaşlığın mühüm platforması kimi innovasiya ekosisteminin inkişafına töhfə verəcək tədbir hesab edilə bilər. Tədbir ölkədə fəaliyyət göstərən startaplar və investorları bir araya gətirərək onlara əməkdaşlıq üçün yeni fürsətlər yaratmaq, rəqəmsal şirkətlər arasında fikir və təcrübə mübadiləsini inkişaf etdirmək baxımından da mühüm əhəmiyyət kəsb edir. Sammitdə fintex, telekommunikasiya, e-ticarət, süni intellekt, marketinq, rəqəmsal bacarıqlar üzrə qlobal tərəfdaşların qoşulması, o cümlədən "Youtube", "Amazon", "Waze" kimi nəhəng şirkətlərin nümayəndələrinin iştirak etməsi rəqəmsal sektorda yenilikçi ideyaların ərsəyə gəlməsində də təşviqedici rol oynayacaq.




### Universitetlərin 70 faizində süni intellekt tədris olunacaq

"INMerge İnnovasiya Sammiti"nin əsas çağırışlarından biri süni intellekt üzrə imkanları artırmaq, tədris, təhsil və elmdə müasir vəhdəti formalaşdırmaqdır. Tədbirdə çıxış edən rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev bildirib ki, həmin prioritetlər üzrə yetərli infrastruktur qurulub və ali təhsil sistemində süni zəkanın təşviqi üzrə strateji baxışlar öz müsbət bəhrəsini verməkdədir. Bu strateji hədəfə uyğun olaraq elmin intellektual və rəqəmsal potensialını yüksəltmək üçün universitetlərin 70 faizində süni intellektin tədris olunması nəzərdə tutulur. Bu çərçivəyə əsasən, ölkəmizdə hazırlanmış süni intellekt strategiyası əsasında təhsil müəssisələrində müxtəlif motivəedici tədbirlər icra olunacaq, universitetlərdən birində isə tamamilə süni intellekt əsaslı innovasiya mərkəzinin formalaşması hədəflənib. Bundan əlavə, özəl sektorda da süni intellektdən istifadə ilə bağlı ssenarilər hazırlanır.

Sammitdə çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov isə qeyd edib ki, Azərbaycanda 2017-ci ildən həyata keçirilən "Rəqəmsal bacarıqlar" layihəsi bu il 650 min tələbəni əhatə edib ki, bu da rəqəmsal sahəyə xüsusi marağın ölçüsüdür. Halbuki ki, bu layihə pilot formada tətbiq edilində cəmi 35 min tələbəni əhatə edirdi. Bu sahəyə qoyulan investisiyalar öz səmərəsini verməkdədir və insan kapitalına əsaslanan yeni fəaliyyət çərçivəsində mütərəqqi innovator və biləcək kadr korpusunun yetişdirilməsi planlaşdırılır.

### "Startap Azərbaycan" platforması sərmayələr cəlb edir

Hədəflərə əsasən, "Startap Azərbaycan" platformasının imkanlarının daha da genişləndirilməsi, startaplar, investorlar, maliyyə fondları, yeni rəqəmsal alətlər üzrə fəaliyyət göstərən biznes komandasına müxtəlif stimullar, təşviqlərin verilməsi nəzərdən keçirilir. Buraya süni inellekt üzrə vergi təşviqlərinin, müxtəlif iqtisadi motivasiyalar da daxildir. Qeyd edək ki, hazırda "Startap" şəhadətnaməsi olan fiziki şəxs şəhadətnaməni aldığı tarixdən 3 il müddətinə və həmin startap şəhadətnaməsi üzrə innovasiya fəaliyyətindən əldə etdikləri gəlirləri vergidən azaddır. Bu təşviq alətlərinin yüksək texnologiyalar sektorunun digər üzvlərinə, vençur qruplarına, inkubasiya və akselerasiya proqramı rezidentlərinə verilməsi də istisna deyil. Eləcə də rəqəmsal ideyalarda fəallıq göstərən gənclərə yeni bizneslərin yaradılmasına dəstək göstəriləcək. Məqsəd bu motivasiyalarla qlobal süni intellekt ailəsinə daxil olan Azərbaycan startaplarının xarici bazarlarda zəka məhsullarını daha çox genişləndirmək və bu sahəyə sərmayələrin həcmini artırmaq hədəflənir. Qeyd edək ki, son bir ildə startaplar 2,2 milyon dollar həcmində investisiya cəlb etməyə nail olub. Hədəf bu rəqəmi 4-5 dəfə artırmaq, yeni sərmayələr hesabına startap ideyaları üzrə inkubasiya proqramlarının sayını da genişləndirməkdir. Həmçinin, inkubasiya və akselerasiya proqramına qoşulanların sayını ən azı 500-ə çatdırmaq, aktiv innovativ mühiti təmin etməkdir.




### "Rəqəmsal Körpü"yə özəl sektor da qoşulur

Elektron intibahın əsas predmeti həm də özəl və biznes sektorunun rəqəmsal ittifaqının möhkəmlənməsidir. Bu birliyin əsas atributu "Rəqəmsal Körpü"yə inteqrasiyadır ki, ölkəmizdə bu istiqamətdə də kifayət qədər irəliləyişlər nəzərə çarpır. İndiyə qədər bu elektron tranzitə 70-dən çox dövlət qurumu, 100-dən çox informasiya sistemi inteqrasiya olunub.

Hazırda icrası və əhatə dairəsi genişlənən "Rəqəmsal hökumət"də yer alan dövlət qurumları arasında məlumat mübadiləsinin güclənməsi özəl sektor üçün də təşviqedici rol oynayır, onların "Rəqəmsal Körpü"də birləşmə meyilləri artırır. Bu vahid rəqəmsal mübadilə isə iqtisadi və sosial sektorlar arasında transformasiyanı daha da sürətləndirəcək. Bu əlaqə, həmçinin hökumətin əsas hədəf prinsiplərindən biri olan təmiz ekoloji mühit niyyətlərinə xidmət etməklə, kağız emissiyasının sıfıra çatmasına səbəb olacaq. Çünki rəqəmsal sənəd dövriyyəsi sistemi sayəsində ağac və fiziki qənaətlər təmin edilmiş olur ki, bu da rəqəmsal inkişafın ən mühüm sütunlarından birinin formalaşması deməkdir.

Rəqəmsal innovasiyaların geniş tətbiqi ölkədə iqtisadiyyatın müasir vizyonunu da yeniləşdirir, rəqəmsal arxitekturanı möhkəmləndirir. Qabaqcıl ölkələrin təcrübəsi göstərir ki, rəqəmsallaşma prosesi yeni iş yerlərinin açılması, həyat keyfiyyətinin yüksəldilməsi, məhsuldarlığın artırılması, şəffaflığın təmin edilməsi, eləcə də kiçik və orta sahibkarlığın inkişafına töhfənin verilməsi ilə iqtisadiyyata müsbət təsir göstərir. Bu baxımdan Azərbaycanın müasir iqtisadi manifesti rəqəmsal iqtisadiyyat quruculuğuna söykənir. Rəqəmsal istisadiyyat insanlar, müəssisələr, cihazlar, məlumatlar və proseslər arasında milyardlarla gündəlik internet bağlantısı nəticəsində ortaya çıxan, başqa bir deyimlə kompüter texnologiyalarına əsaslanan iqtisadi fəaliyyətdir.

Ölkəmizin əlverişli coğrafi mövqeyi və insan potensialı, habelə son illərdə qəbul edilmiş dövlət proqramları, fərman və sərəncamlar bunun üçün münbit şərait yaradır. Bu baxımdan, rəqəmsallaşmanın iqtisadiyyatımıza və cəmiyyətimizə müsbət təsirlərinin gücləndirilməsi və bu prosesin dayanıqlı şəkildə inkişaf etdirilməsi üçün qarşıda bir sıra mühüm vəzifələr dayanır.

### BMT-nin Elektron Hökumətin İnkişaf İndeksində irəliləyiş...

Azərbaycan indiyə qədər rəqəmsal infrastrukturları qurmaqla yeni iqtisadiyyatın mühüm alt-sistemləri və indeksləri üzrə kifayət qədər təcrübə əldə edib. BMT-nin Elektron Hökumətin İnkişaf İndeksi üzrə 2024-cü ilə dair beynəlxalq reytinqdə 9 pillə irəliləyərək 193 ölkə arasında 74-cü yerə yüksəlib.

### Rəqəmsal İqtisadiyyatın İnkişafı üzrə Strategiya sənədi hazırlanır

Bu irəliləyiş, Azərbaycanın rəqəmsal hökumətin inkişafı istiqamətində mühüm addımlar atdığını göstərir. Ancaq rəqəmsal iqtisadiyyat daim artan qlobal rəqabət mühitində yenilikləri və davamlı innovasiya layihələrinin icrasını tələb edir. Azərbaycan bu sahə üzrə qabaqcıl ölkələrdən birinə çevrilmək niyyətindədir. Həmin prioritetlərə çatmaq üçün Rəqəmsal İqtisadiyyatın İnkişafı üzrə Strategiya sənədi hazırlanır. Strategiya rəqəmsal iqtisadi transformasiya və sənaye inqilabının inkişaf hədəflərini özündə ehtiva edir. 51 milli hədəf və təşəbbüsü özündə birləşdirən sənəddə başlıca prinsiplər rəqəmsal iqtisadiyyatın ehtiyaclarına uyğun insan kapitalının hazırlanması, innovasiyaların təşviqi və milli iqtisadiyyatda IV Sənaye İnqilabı texnologiyalarının, o cümlədən süni intellekt həllərinin tətbiqi imkanlarının genişləndirilməsi, idarəetmədə əməliyyat səmərəliliyinin daha da artırılması və rəqəmsal məhsullara əlçatanlığın asanlaşdırılmasıdır.

Hökumətin gözləntilərinə əsasən, strategiyanın icrası çərçivəsində rəqəmsal iqtisadiyyat ekosisteminin tam möhkəmlənməsi bizneslərin rəqəmsallaşma səviyyəsinin artmasına və yeni sahibkarlıq təbəqəsinin formalaşmasına imkan yaradacaq.

*E.CƏFƏRLİ*

# Azərbaycanı iki yerə bölən Gülüstan müqaviləsi

Tarix boyunca məmləkətimiz ağır sınaqlardan keçib. Azərbaycanın əlverişli coğrafiyada yerləşməsi, zəngin sərvətlərə sahib olması, gözəl təbiəti, münbit torpaqları yadellilərin diqqətini özünə çəkirdi. Qonşuluqda və uzaq xaricdə yerləşən böyük dövlətlər torpaqlarımızı ələ keçirmək, sərvətlərimizə sahiblənmək üçün məkrli planlar qururdular. Buna görə də müxtəlif dövrlərdə yurdumuz qanlı savaşlara şahidlik edib. Xalqımızın zaman-zaman ölüm-dirim mübarizələri aparmasına rəğmən, itkilərimiz də çox olub. Faciələrimizin birinin əsası da tarixin bu günündə - 1813-cü il oktyabrın 12-də Qarabağın Gülüstan kəndində Rusiya və İran arasında imzalanan müqavilə ilə qoyulub . Sonradan 11 bəndən ibarət olan bu müqavilə tarixə elə “Gülüstan” adı ilə düşüb.

## Çoxillik müharibənin kədərli nəticələri

Gülüstan müqaviləsi - Rusiya imperiyası ilə Qacarlar dövləti arasında 1804-1813 illər müharibəsinin yekunlarını və Azərbaycanın həmin dövlətlər arasında birinci dəfə bölüşdürülməsini təsdiq edən sənəddir. Gülüstan müqaviləsinə əsasən, Şimali Azərbaycan (İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla) Rusiyanın, Cənubi Azərbaycan isə İranın tərkibinə qatıldı.

Müqavilənin mətni Böyük Britaniyanın Qacar imperiyasındakı nümayəndəsi sayılan və hakimiyyətə böyük təsir gücünə malik olan Ser Qor Ousli tərəfindən hazırlanıb. Müqaviləni Rusiya tərəfindən Nikolay Rtişev, Qacarlar tərəfindən isə Mirzə Əbülhəsən xan Elçi imzalayıblar. Azərbaycan ərazilərinin iki imperiya arasında bölünməsi müqavilənin 3-cü bəndi ilə təsbit olunub. Gülüstan müqaviləsinə əsasən, yalnız Rusiyaya Xəzər dənizində hərbi donanma saxlamaq hüququ verilir (maddə 5), ticarət malları üçün beş faizlik gömrük qoyulur, hər iki dövlətin tacirləri daxili gömrük vergilərindən azad olunurdular (maddə 8-10).

Qeyd etdiyimiz kimi, Gülüstan müqaviləsi iki imperiya arasında çoxillik müharibənin nəticəsi olaraq imzalanıb. XVIII əsrdən başlayaraq Rusiyanın Qara dəniz və Xəzər sahillərindəki torpaqlara doğru irəliləməsi Qafqazda vəziyyəti xeyli mürəkkəbləşdirdi. 1801-ci il sentyabrın 12-də Şərqi Gürcüstanın Rusiyaya birləşdirilməsi haqqında çar manifestindən sonra bütün Cənubi Qafqazı ələ keçirmək üçün perspektiv yarandı. 1803-cü ildə Car-Balakən, 1804-cü ildə Gəncə inadlı müqavimətdən sonra Rusiya tərəfindən işğal olundu.

Rusiya imperiyasının Qafqazda işğalçı fəaliyyəti Qacarları ciddi şəkildə narahat edirdi. 1804-cü ilin mayında Azərbaycana bütövlükdə, yiyələnməyə çalışan İran rus qoşunlarının Cənubi Qafqazdan çıxarılması tələbini irəli sürdü. Rusiya bu tələbi rədd etdi və iki dövlət arasında diplomatik münasibətlər kəsildi. Rusiyanın Cənubi Qafqazda genişlənən istilalarının qarşısını almaq üçün Fətəli şahın vəliəhdi Abbas Mirzə Rusiyaya qarşı 1805-ci ilin yazında hərbi əməliyyatlara başladı.

Bunun ardından Azərbaycan xanlıqlarının öz müstəqilliklərini itirmələri prosesi sürətləndi. 1805-ci il mayın 14-də Qarabağ xanlığı, mayın 21-də isə Şəki xanlığı Rusiya ilə müqavilələr imzaladılar. Lakin bu müqavilələr dövlətlərarası münasibətləri müəyyən edilmiş şərtlər əsasında, hüquqi yolla nizama sala bilmədi. Çünki Rusiya üzərinə götürdüyü öhdəlikləri sonadək yerinə yetirmədi. Qarabağ xanı İbrahim xan 1806-cı ildə Rusiya işğalçıları tərəfindən xaincəsinə qətlə yetirildi və 1822-ci ildə xanlıq ləğv edildi.

Şimali Azərbaycanın ən böyük xanlığının - Şirvanın Rusiyaya qatılması (1805) nəticəsində növbə Bakı xanlığına çatdı. 1806-cı ildə Bakı xanlığı, az sonra Quba xanlığı ələ keçirildi. Beləliklə, 1806-cı ildə demək olar ki, bütün Şimali Azərbaycan Rusiyanın hakimiyyəti altına keçirildi. 1806-cı ildə Rusiya ilə Türkiyə arasında da müharibənin başlanması Rusiya-İran cəbhəsində rusların vəziyyətini nisbətən ağırlaşdırdı.

Sonradan Rusiya vəziyyətin onun xeyrinə dəyişməsinə nail oldu. Napoleonun Rusiya sərhədlərindən qovulması ilə rus qoşunlarının Avropa səfərinin başlanması nəticəsində beynəlxalq vəziyyətdə yaranan dəyişikliklər İranın Rusiya ilə Gülüstan müqaviləsini bağlamasını sürətləndirdi. Artıq hərbi əməliyyatların Təbriz ərazisinə keçmə təhlükəsi yarandı. Bunun qarşısını almaq üçün Abbas Mirzə sülh danışıqlarına başlamağa icazə verdi. İngiltərə danışıqlarda vasitəçilik edirdi.

Yeri gəlmişkən, qeyd edək ki, iki imperiya arasında ixtilafların dərinləməsində, həmçinin digər dövlətlər də maraqlı idilər. Məsələn, Böyük Britaniya hökuməti qüvvədən düşmüş Qacarlar ilə Rusiya arasında barışığa yol verməməyə çalışırdı. 1810-cu ildə general Malkolm yenidən İrana gəlib çoxlu top və tüfəng gətirdi. 1811-ci ildə Ousli, Harford Consun yerinə Tehrana böyük elçi göndərdi. O, 1809-cu il müqaviləsi üzrə nəzərdə



tutulan pul yardımının yeni üçillik məbləğini (360 min funt sterlinq və ya 600 min tümən) Fətəli şaha yetirdi. Tezliklə İngiltərədən Qacarlara 12 top, 12 min mərmi, 12 min tüfəng, 12 min əsgərin geyimi üçün mahud göndərildi. Lakin Böyük Britaniya bu kimi səylərlə Rusiya ilə İran arasında çoxillik müharibənin sonsuzluğadək uzanmasına nail ola bilmədi və iki imperiya arasında Gülüstan müqaviləsinin imzalanması ilə müvəqqəti barışıq təmin edildi.

## Azərbaycan ikinci dəfə qanlı savaş meydanına çevrildi

Rus çarı Aleksandr İranla sülh bağlanması haqqında manifestin ilkin layihəsini 1813-cü il dekabrın 12 (24)-də Fri- burda (İsveçrə) imzaladı. Xarici işlər naziri N.P.Rumyansev Sankt-Peterburqda manifesti alarkən, orada səhv olduğunu müəyyən etdi. Çünki manifestdə Rusiyaya keçən Qarabağ və Gəncə xanlıqlarının adı yox idi. Odur ki, manifest 1814-cü il yanvarın 4 (16)-də geri göndərildi. Müqavilənin ratifikasiya fərmanları tərəflər arasında növbəti dəfə mübadilə olundu. İranla sülh haqqında çar manifesti yalnız 1818-ci il iyulun 16 (28)-da, müqavilənin mətni isə avqustun 7 (19)-də elan edildi.

Gülüstan müqaviləsi Şimali Azərbaycan və bütün Zaqafqaziyanın çar Rusiyası tərəfindən istilasını təsdiq edirdi. Bu müqavilənin bağlanılması ilə Şimali Azərbaycanın Rusiya tərəfindən istilasının birinci mərhələsi başa çatdı. Lakin Gülüstan müqaviləsi Rusiya ilə İran arasında bütün ziddiyyətli məqamları aradan qaldırmadı. Müqavilənin birinci maddəsində bəyan edilən sülh uzun sürmədi. 1826-cı ildə tərəflər arasında ikinci müharibə başlandı. Azərbaycan ərazisi yenidən qanlı döyüş meydanına çevrildi.

## Hər iki tərəf üçün ədalətsiz müharibə

Tarix boyunca dünya adətən iki tip müharibələrə - ədalətli və ədalətsiz müharibələrə şahidlik edilib. Yəni əksər müharibələrin qalib və məğlub tərəfləri olduğu kimi ədalətli və ədalətsiz tərəfləri də olub. Bir dövlət istilaçılıq, təcavüzkarlıq savaşları aparıb, özgə torpaqları hesabına öz ərazilərini genişləndirməyə çalışıb. Digər dövlət isə ərazilərini qorumaq uğrunda müqavimət göstərib. Gülüstan müqaviləsinin imzalanması ilə nəticələnən çoxillik müharibə isə həm İran, həm də Rusiya üçün ədalətsiz müharibə idi. Çünki bu müharibə onların heç birinin ərazisində deyil, üçüncü dövlətin - Azərbaycanın tarixi torpaqlarında gedirdi. Hər iki tərəfin məqsədi özlərinin imperiya maraqlarını təmin etmək idi. İtirən, ərazisi bölünən isə Azərbaycan oldu.

***Mübariz FEYİZLİ***

# Uşaqlar dünyaya gələn gündən...

## Vətənpərvər ruhda yetişdirilməlidir!

Gənclərimizin vətənpərvərlik ruhunda tərbiyəsi ölkənin gələcəyini təmin etmək baxımından mühüm əhəmiyyət daşıyır. Məlumdur ki, vətənpərvərlik sadəcə, Vətənə sevgi və məhəbbət hissi deyil, həm də milli kimliyimizin, mədəniyyətimizin öyrənilməsi üçün fərdin cəmiyyət qarşısında məsuliyyət hissini formalaşdıran bir anlayışdır. Ona görə də bu mənəvi dəyərlərin aşılanması üçün dövlətimiz tərəfindən düşünülmüş, məqsədyönlü siyasət həyata keçirilir.

Məlumdur ki, vətənpərvərlik hissi əvvəlcə ailə mühitində formalaşır. Ailədə uşaqlara milli dəyərlər, adət-ənənələr, tarix və mədəniyyətlə bağlı biliklərin ötürülməsi onların milli kimliyini formalaşdıran əsas addımdır. Ailə üzvləri, xüsusən də valideynlər öz davranışları və danışdıqları ilə uşaqlara Vətənə sevgi, ona bağlılıq hisslərini aşılaya bilər. Bu proses kiçik yaşlardan başlamalıdır ki, uşaq ilk olaraq öz mədəniyyətini və kimliyini dərk etməyi öyrənsin.

**Təlim-tərbiyə işi düzgün qurulmalıdır**

Mövzu barədə “Yeni Azərbaycan” açıqlama verən hərbi ekspert Ədalət Verdiyev bildirib ki, ölkəmizdə hərbi vətənpərvərlik ruhu milli kimlik və tarixin dərin kökləri ilə bağlıdır. O, qeyd edib ki, xüsusilə Vətən müharibəsində bunun bir daha şahidi olduq: “Hər kəsi bir yumruq ətrafında birləşdirən hiss məhz vətənpərvərlik və milli mənlik şüurunun dərki idi. İkinci Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi və uğurlu hərbi əməliyyatlar bütün azərbaycanlılar arasında vətənpərvərlik coşqusu yaratdı. Bu gün regionda və sərhədlərimizdə baş verən proseslər onu göstərir ki, hər bir vətəndaşımız, xüsusilə də gənclərimiz istənilən an Vətənimizin təhlükəsizliyinin təmin edilməsi üçün öz borcunu yerinə yetirməyə hazır olmalıdırlar. Bunun üçün ilk növbədə ailədə, uşaq bağçalarında və xüsusilə də orta məktəblərdə təlim-tərbiyə işi düzgün qurulmalıdır”.

**Atılan addımlar təqdirəlayiqdir**

Ekspert vurğulayıb ki, insanlarda vətənpərvərlik ruhunun formalaşması və yaxud tərbiyələnməsi hansısa bir yaşdan başlamır: “Bina bünövrəsi üstündə durduğu kimi, insan da vaxtında, doğru-düzgün tərbiyə olunarsa, ilkin vərdişlərə yiyələnərsə, gələcəkdə vətənpərvərlik hissi daha möhkəm olacaq və istənilən təhlükələrə sinə və güc gələcək. Bir məqamı xatırlatmaq yerinə düşər: Yeni ana olmuş bir qadın uşağını nə zamandan tərbiyələndirməyə başlamalı olduğu barədə



peyğəmbərə müraciət edir. Peyğəmbər ondan uşağının nə zaman doğulduğunu soruşur və ana altı gündür ki, övladını dünyaya gətirdiyi söyləyir. Peyğəmbər cavab verir ki, artıq 6 gündür övladını tərbiyələndirməyə gecikib. Ona görə də düşünürəm ki, vətənpərvərlik tərbiyəsi daimi gedən proseslərdir. Ümumiyyətlə, respublikamızda övladlarımızın vətənpərvər ruhda yetişməsi istiqamətində atılan addımlar təqdirəlayiqdir. Artıq balaca balalarımıza bağçadan başlayaraq vətənpərvərlik, bayrağa, vətənə sevgi aşılanır. Daha sonra məktəblərdə bu proses davam edir. Aşağı siniflərdən buraxılış sinfinə qədər mövzular dəyişsə də, məqsəd bir olaraq qalır: vətənpərvərlik vərdişlərini inkişaf etdirmək və vətənpərvərlik ruhunu formalaşdırmaq”.

**Müharibə veteranı olan müəllimlər tədrisə cəlb edilməlidir**

Ə.Verdiyev həmçinin şagirdlərin vətənpərvər ruhda yetişməsində təhsil müəssisələrinin rolundan danışıb: “Şagirdlərimiz Vətən müharibəsində qəhrəmanlıq göstərən şəhidlərimizdən, döyüşçülərimizdən nümunə götürməlidirlər. Yuxarı siniflərdə mövcud olan gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisi üçün müharibə veteranları olan müəllimləri prosesə cəlb etmək lazımdır. Məktəblərdə müharibədə şücaət göstərən qəhrəman hərbi qulluqçularımızla şagirdlərin görüşləri təşkil olunmalıdır. Bu görüşlər davamlı xarakter daşımalıdır. Müxtəlif müşavirələr, konfranslar, dəyirmi masalar, mədəni-kütləvi və digər tədbirlərin keçirilməsi formal xarakter daşımamalıdır. Çağırışaqədər hərbi hazırlıq fənninin tədrisi üçün məktəblər bütün zəruri olan avadanlıqlarla tam şəkildə təmin edilməlidirlər. Bu fənlərin tədrisi ilə məşğul olan heyətin hazırlığına da ciddi diqqət yetirilməlidir. Keçirilən hərbi oyunların miqyası kənd, qəsəbə və rayon səviyyəsinə qədər inkişaf etdirilməlidir. Məktəblilərin yuxarı siniflərdə güc strukturlarının hərbi hissələrinə səfərləri təşkil edilməlidir. Həmin hərbi hissələrin keçdiyi döyüş yolu, onun qəhrəman qulluqçuları barədə şəxsi heyətə geniş məlumatlar verilməlidir”.

***Yeganə BAYRAMOVA***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi” istiqaməti üzrə hazırlanmışdır**

# Metroda sıxlıq...

## Qatarlar arasındakı dəqiqə intervalı çoxdur
## Çıxış yolu nədir?

Dünyanın hər yerində olduğu kimi, ölkəmizdə də metro ictimai nəqliyyat vasitəsi kimi mühüm rola malikdir. Etiraf edək ki, əslində, sərnişinlərin bu nəqliyyat vasitəsinə üstünlük verməsinin başlıca səbəbi tıxac və sıxlıq kimi problemlərlə üzləşməyib, mənzil başına daha tez çatmaq istəyidir. Bu baxımdan digər nəqliyyat vasitələrindən fərqli olaraq, metroda ləngimələrlə bağlı problem olmamalı və sərnişinlərin daha əlverişli gedişi təmin edilməlidir.

Son zamanlar isə bunun əksini müşahidə edirik. Metroda ləngimələr, dayanmalar, səbəbsiz fasilələr, sıxlıq, qatarlar arasında dəqiqə intervalının çox olması mütəmadi hal alıb. Məlumdur ki, yay aylarında qatarların dəqiqə interval, artırılır. Bunun səbəbi isə əhalinin, xüsusilə, tələbələrin metrodan daha az istifadə etməsidir.

Xatırladaq ki, sentyabrın 16-dan Bakı metropolitenində qatarların hərəkətinin payız-qış mövsümünün tələblərinə uyğun qurulacağı ilə müvafiq sənəd imzalanmışdı. Belə ki, “Bakı Metropoliteni” QSC-nin sədri Zaur Hüseynov bununla bağlı müvafiq Əmr imzalayıb. Əmrə əsasən, qatarların yeni hərəkət qrafiki təsdiq edilib. Bildirilmişdi ki, yeni tədris ilinin başlanması ilə əlaqədar xətlərdəki qatarların sayı artırılacaq və hərəkəti sıxlaşdırılacaq, interval azaldılacaq.

Lakin metrodan istifadə edən vətəndaşlar arasında narazılıqlar bitmir. Sərnişinlər dərslərin başlamasına baxmayaraq, yenə də qatarların dəqiqə intervalının çox olduğunu bildirirlər.

## Ən minimal intervallar tətbiq olunur

Məsələ ilə bağlı “Yeni Azərbaycan”a açıqlama verən “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin Mətbuat xidmətinin rəhbəri Bəxtiyar Məmmədov bildirib ki, yeni dərs ili ərəfəsində elan edildiyi kimi, Bakı metropolitenində iş günləri ərzində texniki cəhətdən mümkün olan ən minimal intervallar tətbiq olunur. Onun sözlərinə görə, interval 28 Maydan Həzi Aslanov stansiyasına qədər olan sahə üzrə iki dəqiqədir: “İki xətt-yaşıl və qırmızı xətlər 28 May stansiyasında birləşərək Həzi Aslanova qədər bir xətli hərəkəti təşkil edir. Ona görə də 28 Maydan İçərişəhərə və 28 Maydan Dərnəgül istiqamətində bu intervalın tətbiqi məhz texniki cəhətdən metropolitenin quruluşuna görə mümkün deyil. Bakı metropoliteninin prinsiplərinə görə, hər bir xəttin özünün hərəkət qrafiki, elektrik deposu və müstəqil fəaliyyət göstərən infrastruktur sistemi olmalıdır”.

## Qatar sayı çoxalsa da, interval azala bilməz...

B.Məmmədov qeyd edib ki, problemi aradan qaldırmaq üçün yalnız Bakı şəhərinin Baş Planı üzrə təsdiq olunan prioritet vəzifə kimi xətlərin ayrılması həyata keçirilməlidir: “İntervalların aşağı salınmasının texniki cəhətdən mümkün olmasını qeyd edərkən, burada qatarların sayı nəzərdə tutulmur. Çünki hazırda Bakı metropolitenində 60 qatar var. Yaxın günlərdə 7 yeni qatar gətirildiyi üçün həmin 60 qatarın sazlanması üzrə işlər tamamlandıqdan sonra xəttə buraxıldıqda 67 qatar olacaq. Ancaq, bu, yenə də intervallara təsir etməyəcək. Hətta qatarların sayı 67-dən çox olsa da, metropolitenin infrastrukturuna görə intervalların aşağı salınması qeyri-mümkündür”.



## Gecikmələrin səbəbi nədir?

B.Məmmədovun sözlərinə görə, qatarların normasında olan intervaldan fərqli olaraq, daha gec gəlməsinin əsas səbəbi sərnişin sıxlığı, qatarların vətəndaşlar tərəfindən saxlanması ilə əlaqədardır: “Təbii ki, hər bir sərnişini anlayışla qarşılayırıq. Amma qapıların saxlanması ilə gecikmənin yaranmasında əsas faktor saniyələrdir. Yəni Bakı metropoliteni üçün saniyələrin xüsusi bir rolu var. Bir stansiyada qatarın 1 neçə saniyə yubanması kifayət edir ki, bu, zəncirvari formada digər stansiyalardakı xətlərə, əsasən də yaşıl və qırmızı xətlərə təsir göstərsin. Bakı metropoliteni mümkün qədər bütün imkanlardan, mövcud texnikalardan istifadə edərək, problemin qarşısını almağa çalışır”.

## Metropoliten bütün imkanlarını səfərbər edir

Qurum rəsmisinin sözlərinə görə, yeni tədris mövsümünün əvvəli ilə müqayisə etsək, bu gün vəziyyəti daha normallaşmış hesab etmək olar: “Texniki nazasazlıq baş verərsə, Bakı metropoliteni ictimaiyyətin hər hansı bir formada məlumatlanmasından asılı olmayaraq, dərhal özü məlumatları yayır və bununla bağlı media imkanlarından istifadə edir. Metrodakı sıxlığı aradan qaldırmaq üçün çıxış yolları ilə bağlı texniki və insan resurslarından istifadə olunur. Metropoliten sıx stansiyalarda mütləq əlavə işçi qüvvəsi ayırmaqla qapıların tutulub saxlanması, sərnişinlərin minib-düşmə intensivliyinin təmin edilməsi, platforma boyunca sərnişinlərin bərabər paylanması, onların axın istiqaməti üzrə daha intensiv hərəkət etməsi üçün lazım olan tədbirləri görür. Aparılan müşahidələr əsasında sərnişinlərin öz səmtini rahat müəyyən etməsi üzrə metro işçiləri rol oynayırlar. Eyni zamanda səhər gur saatlarda texniki imkanların son həddi tətbiq edildiyi üçün ehtiyat qatardan istifadə edilməsi qeyri-mümkün olur. Bu səbəbdən qatarların manevrindən istifadə edilir. Günorta birinci dərs növbəsi başa çatdıqdan sonra və ikinci dərs növbəsinin başlaması ərəfəsində metropolitenin bir neçə stansiyasında yenə sıxlıq olur. Artıq həmin zaman stansiyalar üzrə sıxlığın tam dəqiqəsi hesablanmaqla ehtiyat qatarlar xəttə buraxılır. Bu proses hər gün dəqiqə və saat hesablanması üzrə aparılır”.

***Yeganə BAYRAMOVA***

# Gürcüstanda Şərq-Qərb savaşı

Cari ilin əvvəlində "Xarici təsirin şəffaflığı haqqında" qanun layihəsi ikinci cəhddə növbəti dəfə Gürcüstan parlamentinin gündəliyinə çıxarıldıqdan və bir neçə ay ərzində aparılan gərgin müzakirələr nəticəsində qəbul olunduqdan sonra artıq bəlli idi ki, qarşıdan gələn payız və qış ölkədə hərarətli keçəcək. Söhbət oktyabrın 26-na təyin olunan parlament seçkiləri ilə bağlı Gürcüstanda siyasi atmosferin həddsiz dərəcədə gərginləşməsindən, iqtidar-müxalifət qarşıdurmasının pik həddə çatmasından, cəmiyyətdə və hakimiyyətdə parçalanma meyllərinin güclənməsindən gedir. Əlbəttə, seçkiöncəsi mərhələdə hakim komanda ilə müxalifətdə dayanan partiyalar arasında rəqabətin güclənməsini gözlənilən təbii siyasi proses kimi dəyərləndirmək olardı - iqtidar öz mövqeyini qorumağa çalışır, müxalif qüvvələr isə hakimiyyətə gəlməyə can atırlar. Bu, siyasətin hamı tərəfindən qəbul olunan əlifbasıdır. Ancaq seçkiöncəsi mərhələdə Gücüstanda vəziyyətin gərginləşməsinin pərdəarxası məqamları da çoxdur.

## Respondentlər nə deyirlər?

Ölkədə seçkiöncəsi aparılan rəy sorğularına əsasən, hakim komanda ictimai rəydə daha çox üstünlüyə malikdir. Bu günlərdə ictimai rəy üzrə ixtisaslaşan GORBİ Beynəlxalq Tədqiqat Mərkəzi Gürcüstanda keçirdiyi seçki sorğusunun nəticələrini açıqlayıb. Hesabata görə, 18-30 sentyabr arası 1700 nəfər arasında aparılmış sorğuda hakim "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası önə çıxıb: Respondentlərin 59,5 faizi oktyabrın 26-na təyin olunmuş parlament seçkisində bu partiyaya səs verəcəyini bəyan edib.Vurğulayaq ki, "Gürcü Arzusu" seçki marafonuna "Xalqın Gücü" Partiyası ilə birlikdə qatılıb.

Üç müxalifət partiyasını birləşdirən "Birlik - Milli Hərəkat" koalisiyası 13,6 faiz səslə göstərilir. Bu koalisiyada əsas qurum sabiq prezident Mixeil Saakaşviliyə bağlı "Vahid Milli Hərəkat" Partiyasıdır.

"Yeniliklər" koalisiyasına respondentlərin 10,3 faizi dəstək ifadə edib. Bu koalisiyaya "Vahid Milli Hərəkat" Partiyasının sabiq üzvlərinin yaratdığı üç müxalif partiya daxildir.

Qalan seçki iştirakçılarının heç birinin 5 faizlik baryeri aşmadığı bildirilir.

Parlament seçkisinə 19 partiya qatılıb.150 yerlik parlament proporsional üsulla (partiya siyahıları üzrə) seçilir. Qanunverici orqana düşmək üçün etibarlı səslərin azı 5 faizini toplamaq tələb olunur. Hökuməti qanunverici orqanda azı 76 mandata malik partiya formalaşdırır. 2012, 2016 və 2020-ci illərin parlament seçkilərində "Gürcü Arzusu - Demokratik Gürcüstan" Partiyası qalib gələrək hökumət qurub.

## Gürcüstanda açılan iki cəbhə

Məsələ burasındadır ki, ölkədə siyasi atmosferi bu qədər gərginləşdirən amillərin heç də sırf ölkənin öz daxilində formalaşdığı fikrini ifadə etmək mümkün deyil. İndiki mərhələdə xarici təsirlər ölkədə, necə deyərlər, katalizator rolu oynayır, cəmiyyətin və hakimiyyətin qollarının sosial-siyasi sifarişləri daha çox dərəcədə bu təsirlərdən qaynaqlanır. O qənaət hasil olur ki, yanan odun üstünə kənardan yağ tökülür və proseslərin də sonu görünmür.

Bu gün Gürcüstan hakimiyyəti milli maraqların qorunması xəttini israrla bəyan etsə də, müxalifət demokratiya, insan haqları, ifadə azadlığı kimi tezisləri əldə bayraq tutsa da, əslində ölkədə iki cəbhə açıldığının, Şərq-Qərb savaşı getdiyinin konturları açıq-aydın müşahidə edilməkdədir. İqtidarla müzalifət arasında fikir ayrılığının getdikcə dərinləşməsi də məhz bu amildən qaynaqlanır. Şərq dedikdə qonşu Rusiya, Qərb dedikdə isə Avropa İttifaqı və ABŞ nəzərdə tutulur.

Sabiq prezident M.Saakaşvili məhz Qərbdən güclü dəstək alan siyasi fiqur kimi Gürcüstan hakimiyyətinə gəlməyə müvəffəq oldu və o, ölkəsinin inteqrasiya siyasətini Aİ-yə yönəltdi. O dövrdə münasibətlərin gərginləşməsi hətta Gürcüstanın Rusiya ilə qısamüddətli müharibəyə qoşulmasına və ərazilərinin bir hissəsini itirməsinədək uzandı.

Sonrakı mərhələdə M.Saakaşvili hakimiyyətinin ömrünü uzatmağa müvəffəq olmadı. Bununla belə, Qərb bloku hakimiyyət dəyişikliyi baş verən Gürcüstanı yenə də öz orbitində saxlamaq cəhdlərindən vaz keçməyib. Müxtəlif şirnikləndirici vədlərlə ölkənin Qərbə inteqrasiyasına cəhdlər göstərilir. Buna ən son və ən "sanballı" nümunə kimi, Aİ məkanına vizasz keçid rejiminin Gürcüstan vətəndaşlarına da şamil edilməsini, keçən ilin dekabrında isə ölkənin Avropa İttifaqına namizəd statusunun təsdiqlənməsini göstərmək mümkündür. Bütün bunlarla, həmçinin Gürcüstana maliyyə və texniki dəstək göstərməklə kollektiv Qərb hakimiyyəti özündən asılı vəziyyətə gətirmək istəyirdi.

Aİ Gürcüstanı özünə çəkmək siyasətində digər coğrafiyalarda həyata keçirdiyi cəmiyyəti ələ almaq metodunu da işə salıb. Belə ki, ayrılan böyük həcmlərdə maliyyə vəsaitinin nəticəsi olaraq Gürcüstanda Qərbə bağlı qeyri-hökumət təsisatlarının sayı yağışdan sonra göbələk kimi artıb. Bu gün kiçik Gürcüstanda 10 minədək QHT fəaliyyət göstərir ki, onların da əksər hissəsi məhz Avropa və ABŞ təsisatlarından gələn vəsaitlərlə maliyyələşir. Beləliklə, tam qətiyyətlə o fikri ifadə etmək mümkündür ki, hakimiyyətə müxalif mövqe sərgiləyən qüvvələr böyük dərəcədə Qərbdən maliyyə asılılığına malikdirlər ki, yaşanan gərginliklərin kökündə də məhz bu amil dayanır.



## Kollektiv Qərbin gerçək simasını üzə çıxaran iki qanun

Cari ildə Gürcüstan parlamentində hakim partiyanın təşəbbüsləri əsasında iki mühüm qanun qəbul olunub. Onlardan biri yuxarıda bəhs etdiyimiz "Xarici təsirin şəffaflığı haqqında" qanundur. Gürcüstan hakimiyyəti bu qanunun qəbul olunmasını ölkənin milli maraqlarının qorunması zərurəti ilə əlaqələndirir. Qanunda xaricdən maliyyələşən müvafiq təsisatlara nəzarət mexanizmi nəzərdə tutulur. Bu nəzarət mexanizmi isə ilk növbədə şəffaflığın və hesabatlılığın təmin edilməsi məqsədi daşıyır. Fəaliyyətlərini qanunla müəyyənləşdirilən prosedurlara uyğun qurmayan təsisatları ciddi cərimələr gözləyir. Eyni zamanda, Gürcüstan hakimiyyəti gələcəkdə vətəndaş cəmiyyəti təsisatlarının hökumətdən maliyyə alacaqlarının anonsunu edib və bu istiqamətdə müzakirələrə başlanıb. Aydın şəkildə görünür ki, bütün bunlar Gürcüstan cəmiyyətinin Qərbdən asılılığının azaldılmasına hesablanan addımlardır.

Qərb isə bunu istəmir və bəhs olunan qanunu başqa izahlar altında təqdim edir. Qərb o qənaətdən çıxış edir ki, "Xarici təsirin şəffaflığı haqqında" qanun Gürcüstanın siyasi oriyentasiyasını Avropadan Rusiyaya doğru dəyişmək məqsədilə qəbul olunub. Halbuki belə bir izahın əsası yoxdur. Bu, Qərbin növbəti riyakarlığıdır. Gürcüstan hakimiyyəti dəfələrlə bəyan edib ki, oxşar qanunlar, həmçinin Fransada, ABŞ-də və digər ölkələrdə də qəbul olunub. Ancaq həmin ölkələrə irad tutulmur, Gürcüstan isə total ittihamlarla üzləşib.

Beləliklə, Qərb dairələri bəhs olunan qanunun qüvvəyə minməsini əngəlləməyə çalışır. Gürcüstan hakimiyyəti isə qanunun işləməsində israrlıdır. Son olaraq bu günlərdə Gürcüstanın Konstitusiya Məhkəməsi "Xarici təsirin şəffaflığı haqqında" qanunun fəaliyyətinin dayandırılması ilə bağlı ölkə prezidentinin və müxalifətin vəsatətini təmin etməyib. Bununla bağlı Konstitusiya Məhkəməsi məlumat yayıb.

Bundan başqa, məhkəmə təqdim olunmuş iddiaları məqbul sayıb və həmin iddiaların mahiyyəti üzrə müzakirələr aparılacaq. Qeyd olunub ki, açıqlanan qərar bir neçə hakimin fərqli fikirləri ilə müşayiət olunub.

Qeyd edək ki, Qərbə açıq simpatiyasını gizlətməyən prezident Salome Zurabişvili həmin qanunu təsdiq etməmişdi. Bundan sonra parlamentin sədri qanuna müvafiq olaraq həmin qanunu təsdiqləmişdi. Ölkə prezidenti, müxalif siyasi partiyalar və qeyri-hökumət təşkilatları "Xarici təsirin şəffaflığı haqqında" qanunun ləğvi və ya fəaliyyətinin dayandırılması ilə bağlı Konstitusiya Məhkəməsinə müraciət ünvanlamışdı.

Qərb dairələri, həmçinin Gürcüstan parlamentinin sentyabr ayının 17-də qəbul etdiyi "Ailə dəyərləri və yetkinlik yaşına çatmayanların müdafiəsi" adlı qanuna münasibətdə də eyni kontekstdən çıxış edirlər. Onlar hesab edirlər ki, bu qanun "mətbuat və ifadə azadlığına ziddir". Arqumentləri də budur ki, yeni qanunvericilik ölkədə "LGBT+ mövzusunda sərbəst reportaj hazırlamaq imkanlarını məhdudlaşdırır". Maraqlıdır, Gürcüstan öz ərazisində ailə institutunu qorumağa yönəlmiş addımlar atırsa, Avropa nə üçün bu qədər narahat qalır?

Gürcüstan Avropa strukturlarına, o cümlədən Avropa Əməkdaşlıq və Təhlükəsizlik Təşkilatına (ATƏT), yaxud Avropa Şurasına ona görə üzv olmayıb ki, gəlib burada "LGBT+" hərəkatını, yaxud, "Radikal feminizm"i stimullaşdırsınlar, ailə institutunu dağıtsınlar. ATƏT-ə, AŞ-yə üzv olmaqda məqsəd ölkənin təhlükəsizliyinə təminat almaqdır, demokratik inkişaf yolunda dəstək qazanmaqdır. Bu gün ərazisi param-parça olmuş Gürcüstanın suverenliyinin təmin edilməsi üçün ATƏT və AŞ hansı real addımları atıblar? Avropa institutları "LGBT+" icmasının hüquqlarını qorumaq üçün göstərdikləri entuziazmı, qətiyyəti Gürcüstanın ərazi bütövlüyünün, suverenliyinin bərpası məsələsində nə üçün sərgiləmirlər?

Ərazi bütövlüyü, suverenliyi pozularkən ATƏT-dən, Avropa Şurasından real əməli dəstək görməyən Gürcüstanın indi də daxili sabitliyi pozulursa, cəmiyyətin dayağı olan ailə institutu yad təmayüllü cərəyanlar vasitəsilə çökdürülürsə, dövlət bu təhlükənin qarşısını almaq üçün addım atmalı deyilmi? Cəmiyyətin sabitliyini, sağlamlığını qorumaq yönündə addımlar atdığı üçün Gürcüstan ittihamlara və sanksiyalara məruz qalmalıdırmı?




## Qərbdən Gürcüstana total hücum

Qeyd olunan iki qanuna görə Gürcüstana ABŞ-dən və Aİ-dən total hücum kampaniyası aparıldığını müşahidə edirik. Kollektiv Qərbdən ölkənin siyasi hakimiyyətini, necə deyərlər, "ağ yuyub, qara sərən" bəyanatlar eşidilir. Aİ-nin Gürcüstandakı səfiri Pavel Qerçinski gürcü mediasına müsahibəsində deyib ki, "Gürcü Arzusu"nun hakimiyyəti dövründə Gürcüstan heç vaxt Aİ-yə üzv ola bilməz. Diplomatın sözlərinə görə, Gürcüstan rəhbərliyi istəklərinə baxmayaraq, ölkə əhalisini Aİ-yə üzvlükdən uzaqlaşdırır. Qerçinski Gürcüstana Aİ-yə namizəd statusu verməsini diplomatik karyerasında ən böyük uğuru hesab edir.

"Bəs Gürcüstan namizəd statusunu aldıqdan sonra nə baş verdi? Əhalinin əksəriyyəti və müxalifət partiyaları Aİ-yə üzv olmaq istəyir, lakin hakimiyyət insanları bu ittifaqa üzvlükdən uzaqlaşdırır. Gürcüstan hökumətinin üzvləri Aİ dəyərlərindən uzaqdırlar", - deyə diplomat qeyd edib.

"Keçən ilin dekabrında Gürcüstan Aİ-yə namizəd statusunu alanda biz ümid edirdik ki, bu, hökumətin Aİ-yə üzvlük danışıqlarına başlamaq üçün mühüm islahatlar həyata keçirməsi üçün güclü stimul verəcək. Əvəzində son aylarda hakim partiyanın rəsmiləri ölkəni bu məqsəddən uzaqlaşdıran qanunlar təklif ediblər. Geniş etirazlara baxmayaraq, vətəndaş cəmiyyəti və media qurumlarının fəaliyyətinə əngəl törədən "Şəffaflıq haqqında" qanun yenidən gündəmə gətirilib və qəbul edilib. LGBT icmasını ləkələyən və dövlət qurumlarının müstəqilliyini zəiflədən başqa təkliflər də irəli sürülüb. Eyni zamanda, Aİ-yə qarşı ritorika daha da güclənib". Bu fikirləri isə Avropa Komissiyasının vitse-prezidenti Vera Jurova Avropa Parlamentində Gürcüstan üzrə plenar iclasda ifadə edib.

Beynəlxalq statuslu hüquqmüdafiə təşkilatlarının Gürcüstana yönəlik bəyanatları da intensivləşib. Təkcə jurnalist təşkilatları son bir ay ərzində 6 müxtəlif mövzu üzrə rəsmi Tbilisini qınayan açıqlama yayıblar. Digər təyinatlı təşkilatlar, o cümlədən "Amnesty İnternational", "Freedon House", "Human Rights Watch" da sinxron davranaraq, son bir ildə Gürcüstanı hədəf ölkə seçiblər.

Gürcüstan Qərbdən gələn siyasi bəyanatlarla yanaşı, həm də praktiki müstəvidə atılan sərt addımlarla, ayrı-ayrı təsisatlarda qəbul olunan qərəzli qətnamələrlə üzləşir. Bu günlərdə Avropa Parlamenti Gürcüstanla bağlı qətnaməni dəstəkləyib. Avropa Parlamentinin 495 üzvü qətnamənin lehinə, 73-ü əleyhinə səs verib, 86-sı bitərəf qalıb. Qətnaməyə əsasən, Avropa Parlamenti Gürcüstanda demokratiyanın azalmasından dərin təəssüf hissi keçirir və Avropa İttifaqını Bidzina İvanişviliyə və Gürcüstanda demokratiyaya xələl gətirən bütün şəxslərə qarşı şəxsi sanksiyalar tətbiq etməyə çağırır.

Qətnamənin mətnində Gürcüstanın keçmiş Prezidenti M. Saakaşvilinin azadlığa buraxılması və viza rejiminin liberallaşdırılması məsələsindən də bəhs edilir. Avropa Parlamenti, həmçinin Gürcüstan hökumətini Rusiyaya qarşı sanksiyalar tətbiq etməyə çağırır.

"Gürcüstan hökuməti Avropa İttifaqının 121 milyon avro məbləğində maliyyə yardımından məhrum olacaq. Buna Gürcüstan hökumətinin demokratik standartlardan uzaqlaşması səbəb olub". Bu barədə Aİ-nin Gürcüstandakı nümayəndəliyi məlumat yayıb.

Bildirilir ki, Avropa İttifaqı 2022, 2023 və 2024-cü illərdə Gürcüstan hökuməti üçün 121,3 milyon avro məbləğində illik vəsait ayırıb. Lakin bu vəsait 2024-cü ildə dayandırılacaq. Buna səbəb Gürcüstan hökumətinin demokratik standartlardan uzaqlaşması, xüsusən də vətəndaş cəmiyyətinə qarşı yönəlmiş "Xarici təsirin şəffaflığı haqqında" qanunun qəbulu olub.

"Gürcüstan təkcə bu yardımdan deyil, digər yardımlardan da məhrum edilə bilər", - deyə məlumatda bildirilir.

Oxşar cəza mexanizmlərini, həmçinin ABŞ işə salıb. Artıq bu ölkə də Gürcüstana dəstəyini dayandırdığnı bəyan edib. ABŞ dövlət katibi Antoni Blinkenin verdiyi məlumata görə söhbət Gürcüstan hökumətinə dəstək üçün nəzərdə tutulan 95 milyon dollardan artıq yardım paketinin dayandırılmasından gedir. ABŞ rəsmisi də Gürcüstanda qəbul olunan qanunun Qərb dəyərlərinə zidd olduğunu, ölkənin Aİ və NATO-ya üzvlük standartları ilə bir araya sığmadığını söyləyib. "Gürcüstan hökumətinin hərəkətlərindən sonra mən ABŞ və Gürcüstan arasında ikitərəfli əməkdaşlığın hərtərəfli nəzərdən keçirilməsini elan etdim. Bu araşdırma nəticəsində ABŞ Gürcüstan hökumətini dəstəkləmək üçün 95 milyon dollardan çox yardımı dayandırır", - deyə A.Blinken vurğulayıb.

## Rusiya revanş götürür

Qərbin davranışları fonunda Rusiyanın Gürcüstana münasibətdə revanş cəhdləri diqqətdən yayınmır. Rəsmi Moskva Gürcüstan vətəndaşları üçün vizasız rejimin müddətini artırıb. Bununla bağlı Prezident Vladimir Putin Fərman imzalayıb.

Fərmana əsasən, Gürcüstan vətəndaşları vizasız Rusiyada 90 gündən artıq müddətdə qala və işləyə biləcəklər.

Qeyd edək ki, Vladimir Putinin Fərmanı ilə 2023-cü il mayın 10-dan Gürcüstan vətəndaşları üçün tətbiq olunan viza rejimi ləğv olunmuşdu. Fərmana əsasən, həmin il mayın 15-dən Gürcüstan vətəndaşlarına şəxsiyyəti təsdiq edən sənədlə, vizasız Rusiya ərazisinə daxil olmaq və 90 günə qədər bu ölkədə qalmaq hüququ verilirdi. Yeni fərmanla isə 90 günlük məhdudiyyət limiti aradan qaldırılır.

Eyni zamanda, Moskva ilə Tbilisi arasında siyasi dialoqun intensivləşdiyi də müşahidə edilir. Gürcüstan mətbuatının yazdığına görə, rəsmi Tbilisi Gürcüstan ilə Rusiya arasındakı Cenevrə beynəlxalq danışıqlarının 62-ci raunduna ciddi hazırlaşır.

Bu günlərdə Gürcüstan Xarici İşlər Nazirliyində Avropa İttifaqı, BMT və ATƏT-dən olan həmsədrlərin iştirakı ilə toplantı keçirilib.

Gürcüstan xarici işlər nazirinin birinci müavini və Cenevrədəki beynəlxalq danışıqlarda Gürcüstan nümayəndə heyətinin rəhbəri Laşa Darsaliya danışıqların mövzusu barədə məlumat verib.

Görüşdə Cenevrə beynəlxalq danışıqlarının səmərəli fəaliyyət göstərməsinin vacibliyi vurğulanıb.

Bundan əlavə, Hadisələrin Qarşısının Alınması və Müdaxilə Mexanizminin (IPRM) heç bir ilkin şərt qoyulmadan bərpa edilməsinin və əsas prinsiplərə uyğun olaraq bu mexanizmin Qali və Erqnetidə mütəmadi iclaslarının keçirilməsinin vacibliyi qeyd edilib.

Cenevrə beynəlxalq danışıqlarının 62-ci raundu noyabrın 5-6-na planlaşdırılıb.

*Mübariz ABDULLAYEV*

# Şolts İstanbulda Ərdoğanla danışıqlar aparacaq



Almaniya Kansleri Olaf Şolts oktyabrın 19-da İstanbulda Prezident Rəcəb Tayyib Ərdoğanla danışıqlar aparacaq.

AZƏRTAC xəbər verir ki, bu barədə Almaniya Nazirlər Kabinetinin nümayəndəsi Volfqanq Byuhner jurnalistlər üçün təşkil olunan brifinqdə deyib.

"Kansler Olaf Şolts gələn həftənin sonunda Türkiyəyə səfər edəcək və oktyabrın 19-da İstanbulda Prezident Rəcəb Tayyib Ərdoğanla görüşəcək", - deyə o bildirib.

Məlumata görə, danışıqlarda Ukraynadakı müharibə, Yaxın Şərqdəki vəziyyət və miqrasiya problemi müzakirə olunacaq. Görüşdən sonra mətbuat konfransının keçiriləcəyi planlaşdırılır.

# Rusiya və İran prezidentləri görüşüblər

Aşqabadda Rusiya Prezidenti Vladimir Putinlə İranın dövlət başçısı Məsud Pezeşkian arasında görüş olub.



AZƏRTAC xəbər verir ki, görüş türkmən klassiki, şair-mütəfəkkir Məhtimqulu Fəraqinin anadan olmasının 300 illiyinə həsr olunan "Zamanların və sivilizasiyaların qarşılıqlı əlaqəsi" forumunun kuluarlarında baş tutub.

Qeyd edək ki, bu, Pezeşkianın dövlət başçısı seçilməsindən sonra Rusiya və İran prezidentləri arasında ilk üzbəüz danışıqlardır.

Görüş zamanı Putin Rusiya ilə İran arasında ticarət dövriyyəsinin artdığını qeyd edərək, iki ölkənin beynəlxalq arenada fəal əməkdaşlığını diqqətə çatdırıb və baş verənlərlə bağlı çox vaxt oxşar mövqelərdən çıxış etdiyini vurğulayıb. O, həmçinin İran Prezidentini Rusiyaya rəsmi səfərə dəvət edib.

# Nobel Sülh Mükafatı laureatının adı açıqlanıb




Yaponiyanın milli təşkilatı "Nihon Hidankyo" 2024-cü il Nobel Sülh Mükafatının laureatı olub.

AZƏRTAC Nobel mükafatının "nobelprize.org" rəsmi saytına istinadla xəbər verir ki, bu təşkilat mükafata nüvə silahının törətdiyi humanitar fəlakətlər haqqında məlumatların yayılmasında mühüm rol oynayan fəaliyyətinə və nüvə silahına qarşı beynəlxalq kampaniyalarda fəal iştirakına görə layiq görülüb.

Təşkilat nüvə silahlarını qadağan etmək üçün mübarizə aparır və sağ qalanlara atom bombası hücumlarının nəticələri ilə bağlı hüquqi və tibbi məsələlərdə köməklik göstərir.

# Zelenskinin Avropa turnesi

## O, Avropa ölkələrinin liderlərindən sülh planına dəstək almağa çalışır

Ukrayna Prezidenti Volodimir Zelenski Avropaya səfəri çərçivəsində bir sıra ölkələrin liderləri ilə görüşüb. O, Xorvatiyadan sonra ölkəsinin vəziyyətini və sülh planını müzakirə etmək üçün Böyük Britaniya, Fransa və İtaliya liderləri ilə görüşlər keçirib.

Əvvəlcə Londona səfər edən Ukrayna Prezidenti V.Zelenski Böyük Britaniyanın Baş naziri Strarmerlə görüşdə ölkəsinin Rusiya ilə müharibədə qələbəsini nəzərdə tutan planı təqdim edib. Tərəflər müttəfiqlərlə birlikdə onun üzərində iş aparılması barədə razılıq əldə edib. Ukrayna lideri deyib ki, sözügedən sənəd müharibənin ədalətli şəkildə başa çatdırılmasını ehtiva edir: "Müəllifi olduğumuz planın əsas müddəası müharibənin ədalətli olaraq yekunlaşması ilə bağlı tədbirləri müəyyənləşdirir. Plana əsasən, Ukrayna ordusunun Kursk istiqamətindəki hərbi əməliyyatları davam etdirməsi də nəzərdə tutulur. Mən fürsətdən istifadə edib ölkəmizi uzaqmənzilli silahlarla təchiz etdiyi üçün Böyük Britaniyaya təşəkkür edirəm".

## Zelenski Makrondan razılıq ala bilməyib?

Zelenski daha sonra Fransaya səfər edərək Parisdə fransalı həmkarı Emmanuel Makronla danışıqlar aparıb. O, mətbuata birgə bəyanat zamanı deyib ki, Ukrayna Qərb ölkələrindən zəmanət almaq müqabilində atəşkəs barədə düşünmür. V.Zelenski Ukraynanın Qərb ölkələrindən zəmanət alacağı təqdirdə atəşi dayandıra biləcəyi variantının nəzərdən keçirilib-keçirilməməsi ilə bağlı suala cavabında bildirib: "Bu, bizim müzakirələrimizin mövzusu deyil, heç bir atəşkəs yoxdur, biz bu barədə danışmaq istəmirik. Rusiya mediası bu mövzuya geniş yer ayırır".

Ukrayna Prezidenti fransız həmkarı ilə danışıqlardan sonra, xüsusilə hərbi, silah-sursatın çatışmazlığı fonunda Fransanın köməyinə ümid etdiyini qeyd edib. Xüsusilə, liderlər uzaq məsafələrdə müəyyən döyüş sursatlarının istifadəsinə icazə verilməsini müzakirə ediblər. Zelenski izah edib ki, bu, Ukrayna üçün lazımdır. Çünki dronlar uzaq məsafələr üçün kifayət etmir.

Öz növbəsində Makron ukraynalı həmkarı ilə görüşün təfərrüatlarını açıqlayıb. Onun sözlərinə görə, müzakirələr zamanı "yaxşı fikir mübadiləsi" aparılıb: "Bir daha vurğulamaq istərdim ki, Fransa Ukraynanın Rusiyanın təcavüzkar müharibəsinə qarşı həm hərbi, həm də diplomatik sahədə müqavimətini dəstəkləyir". O, əmin edib ki, Fransa həm silah təminatı məsələsində, həm də Ukrayna əsgərlərinin təlimi məsələsində öz öhdəliklərini yerinə yetirməkdə davam edir.



## Ukrayna ilə bağlı növbəti konfransa İtaliya ev sahibliyi edəcək

İtaliyanın paytaxtı Romada isə Zelenski bu ölkənin Baş naziri Corciya Meloni ilə görüşüb. Görüşdə Ukraynadakı hazırkı vəziyyət, hərbi, maliyyə və humanitar sahələrdə ən təcili ehtiyaclar, həmçinin növbəti diplomatik təşəbbüslər və münaqişəyə son qoyulması istiqamətində atılacaq addımlar müzakirə olunub. Birgə mətbuat konfransında xanım Meloni deyib ki, gələn il iyulun 10-dan 11-dək Romada Ukraynanın gələcəkdə yenidən qurulması və bərpasına dair növbəti konfrans keçiriləcək. O, ölkəsinin Ukraynanın gələcək bərpasında öz rolunu oynamağa davam edəcəyini bildirib. Eyni zamanda, İtaliyanın Ukrayna müdafiə sənayesinə dəstəyini davam etdirəcəyi qeyd olunub.



Meloni Rusiya-Ukrayna müharibəsində Kiyevə verdikləri dəstəyin perspektivi olduğunu və Ukraynanın ehtiyacı olduğu müddətcə bu dəstəyi verməyə hazır olduqlarını bildirib. O, bu dəstəyin məqsədinin Ukraynanı sülh masası quracaq vəziyyətə gətirmək olduğunu deyib: "Bu, bir çox insanın qorxaqcasına irəli sürdüyü kimi təslim olmaq mənasını verməyəcək bir sülh masasıdır. Bura hərbi dəstək və enerji də daxil olacaq. Prezident buraya hamımızın ehtiyac duyduğu ədalətli sülhə aparan yolun qurulması üçün öz ideyalarını təqdim etmək üçün gəlib".

Volodimir Zelenski isə İtaliyanın ölkəsinə güclü dəstək verdiyinə görə C.Meloniyə təşəkkürünü bildirib. O, İtaliyanın Baş naziri ilə çox məhsuldar görüş keçirdiyini deyib: "Ukraynada bu müharibəyə ədalətli son qoymaq üçün hazırladığımız sülh və qələbə planının təfərrüatlarını ən yaxın dostlarımız olan avropalılara təqdim edirik. Plana, onun təfərrüatlarına və bütün strategiyaya marağına görə mən İtaliya hökumətinə minnətdaram".

## Zelenski Roma Papası ilə də görüşüb

Qeyd edək ki, oktyabrın 11-də isə Zelenski Vatikana səfər edərək Roma Papası Fransisklə danışıqlar aparıb. Ukrayna prezidentinin növbəti dayanacağı isə Almaniyanın paytaxtı Berlin olub. Bu səfərdə də məqsəd Kiyevin sülh planının kansler Olaf Şoltsa təqdim edilməsidir. Xatıladaq ki, Volodimir Zelenski əvvəlcə Almaniyanın Ramştayn aviabazasında Ukrayna üzrə təmas qrupunun iclasında iştirak etməli idi. Lakin ABŞ Prezidenti Cozef Bayden "Milton" qasırğası səbəbindən planlarında dəyişikliklər etdiyi üçün sammit təxirə salınıb.

Zelenskinin sülh planı isə 3 əsas elementdən ibarətdir. Bunlara Ukraynaya daha çox silah yardımı, Rusiyanı sülhə məcbur etmək üçün beynəlxalq miqyasda diplomatik səylər göstərmək, 2022-ci il qarşıdurmalarına görə Moskvanın məsuliyyət daşıması kimi müddəalar daxildir. Ukrayna lideri ötən ay BMT Baş Assambleyasının 79-cu sessiyasında iştirak etmək üçün Nyu-Yorka səfəri zamanı bu planı ABŞ prezidenti Co Baydenlə və vitse-prezident Kamala Harrislə müzakirə etmişdi. Bundan əlavə, Ukrayna artıq 20-dən çox ölkə ilə təhlükəsizlik haqqında saziş imzalayıb. Onların arasında ABŞ, Böyük Britaniya, Almaniya, Fransa, Niderland, Xorvatiya və digər Avropa dövlətləri yer alıblar.

***N.BAYRAMLI***

# Hindistan dərvişi

## Rabindranat Taqorun "Gitancali" mistik toplusu haqqında

**əvvəli ötən sayımızda**

Taqorun lirik qəhrəmanı bütün idealist filosofların, şairlərin, yazıçıların "ləhcəsində" danışır, müəllifini onlarla bir mərtəbəyə, bir dərgaha qaldırır. Bu ilahinamələrdə Platondan tutmuş Nizamiyə, Plotindən Avqustinə, Əttardan Mövlanaya, Nəsimidən Spinozaya, Hüqodan Tolstoya qədər hər kəsin barmaq izini, Rilkedən Ramiz Rövşənəcən neçə-neçə şairin ruh yaddaşını, genlərini tapmaq olar. Taqor öz sevdiyinə ikinci şəxs qismində yanaşsa da, onu öz canından ayrı tutmur, ona haqqın, gözəlliyin mənbəyi, özünə isə onun təcəllası kimi baxır.

**Can necə tərk eyləsin,**
**ey can, səni,**
**Çünki canın canısan,**
**ey canımız! -**

deyən Nəsimi aşağıdakı parçada elə bil yenidən söz meydanına at sürüb:

*"Ey canımın canı! Mən vücudumu həmişə təmiz saxlamağa çalışacağam - bilirəm ki, bütün əzalarımda sənin həyatverici təması nın izi var.*

*Mən xəyallarımı, fikirlərimi həmişə yalandan, riyadan qorumağa çalışacağam - bilirəm ki, sən işığı mənliyimdə yanmış olan həmin həqiqətsən.*

*Mən qəlbimdən həmişə şəri qovmağa, orada sevgi bəsləməyə çalışacağam - bilirəm ki, sən qəlbimin ən gizli guşələrindəsən.*

*Mənim məqsədim hər əməlimdə səni zühura gətirməkdən ibarət olacaq - bilirəm ki, sən məni pənahında saxlayacaqsan".*

Yaxud Ramiz Rövşənin Allaha ünvanladığı,

**Kim bilir necəsən, necə?**
**Kim bilir, bəlkə bu gecə**
**Sən idin qapımdan keçən,**
**Tanımadı qapım səni...**

- bəndiylə bitən məşhur ilahinaməsinin aşağıdakı parçaya ruh qohumluğunu görmək üçün dərin fəhm, iti sezgi yiyəsi olmağa hacət yoxdur:

*"Sənin hüzuruna gətirdiyim nəğmənin bu günə qədər oxunmamış qalıb. Mən günlərimi rübabımı sazlamaqla, kökləməklə keçirmişəm.*

*Ahənglər əlimdən qaçır, sözlər lazım olduğu kimi düzülmürdü; yalnız sudan doymayan atəşdən qəlbim parçalanırdı.*

*Çiçək açılmırdı; yalnız külək ah çəkə-çəkə əsirdi.*

*Mən onun üzünü görmədim, səsini eşitmədim; yalnız evimin qarşısındakı yolda sakit ayaq səsləri duydum.*

*Uzun bir gün ona yer hazırlamaqla gəlib keçdi; amma çırağım yanmadı, mən onu öz evimdə qəbul eləyə bilmədim.*

*Mən onunla görüşmək ümidiylə yaşayıram; amma bu görüş müyəssər olmur ki, olmur".*

Aşağıdakı pritçada isə elə bil Platonun mağarasında zəncirə vurulmuş qafillərdən biri danışır:

*"- Ey dustaq, söylə görüm səna bu buxovları kim vurub?*

*Dustaq dedi:*

*- Mənim hökmdarım. Mən sərvətdə, qüdrətdə hamıdan üstün olacağımı düşünüb hökmdarımın bütün var-yatırını öz xəzinəmə daşıdım. Məni yuxu basanda ağam üçün döşənmiş yatağa girib uzandım, ayılanda gördüm ki, öz xəzinəmin dustağıyam.*

*- Ey dustaq, söylə görüm bu qırılmaz zəncirə səni kim bənd eləyib?*

*Dustaq cavab verdi:*

*- Mən özüm. Bunları mən özüm belə ustalıqla döyüb bərkitmişəm. Düşünürdüm ki, yenilməz qüdrətimlə bütün dünyanı əsir alıb tək özüm azad qalacağam. Gecə-gündüz bu zəncirin üstündə işlədim, onu odda-alovda közərdib ağır çəkiclə döydüm. İş başa çatıb zəncirin halqaları qırılmaz surətdə bir-birinə bənd olanda gördüm ki, mən heç kimi yox, özümü zəncirləmişəm".*

***

Dünyəvi arzulara könül verən, canını maddi aləmə buxovlayan insan daşıdığı ömür yükünü duz yükünə çevirir. Bədən ruhun iş otağı, onun dünyayla əlaqəsini tənzimləyən rabitə qurğusu, Yaradanın icad elədiyi kosmik aparatdır. Yalnız bu missiyasını yerinə yetirəndə insan cismi mötəbərlik, müqəddəslik qazanır.

Ancaq bədənin ruhun canatımlarına müxalif maraqları da var, insan bu maraqların - tamahının, ehtirasının ardınca sürünəndə qanadlarını yandırır, çiyinlərini gücə salır, canını artıq yük kimi, şələ kimi daşıyır. Bu, elə bir yükdür ki, onu yük yiyəsinin özündən başqa bir kimsə çəkə bilməz, bu işdə nə anası, nə balası onun dadına çatar. Bədən ruha işlədikcə öz yükündən xilas olur. Yalnız bu halda fani insan cismi kosmik missiyasını yerinə yetirmiş sayılır:

*"Ey nadan, sən özün özünü çiynində daşımağa cəhd göstərirsən! Sən öz qapında özündən sədəqə dilənirsən!*

*Öz yükünü o kəsə ver ki, onu qaldırmağa gücü yetər, sənə ağır gələnlər ondan ötrü bir nemətdir.*

*Sənin arzun nəfəsiylə çırağın alovunu bir andaca söndürər. O arzular xəbisdir, xəbislərdən hədiyyə götürməzlər".*

***

Bu həyat özü boyda bir məclisdir, Tanrı kimi bu məclisə çağırırsa, ona həm dinləmək, həm də danışmaq imkanı verir. Bu imkandan yararlanıb böyük mətləblərə vaqif ola, böyük həqiqətlər dilə gətirib böyük işlər görə də bilərsən, o məclisdə yeyib-içib mürgüləyə, ömrü yuxuya verə də bilərsən. Yalnız birinci halda bu qaranlıq mağaranın bacası üzünə açılacaq, arzusunda olduğun dərgaha ayaq basacaqsan; qalan bütün hallarda bir sıçan deşiyinə təpilib ilan-çayana yem olacaqsan:

*"Mən bu dünya ziyafətinə çağırılmışdım, həyatım əziz tutulmuşdu. Gözlərim gördü, qulaqlarım eşidirdi.*

*Bu ziyafətdə mənə rübab çalmaq nəsib oldu, mən də əlimdən gələni əsirgəmədim.*

*İndi soruşuram: nəhayət, o saat gəlib çatıbmı ki, mən içəri girib sənin çöhrəni görə bilim, sənə salamımı səssiz-səmirsiz verə bilim?.."*

***

Səksən il ömür sürmüş Rabindranat Taqorun yaradıcılığı qollu-budaqlıdır - yazıçının onlarla poetik toplusu, səkkiz romanı, çoxlu pyesi, daha nələri, nələri var. Bundan başqa o, gözəl rəsmlər də çəkib, xoş musiqilər də bəstələyib.

On üçüncü əsrdə yaşamış Əmir Xosrov Dəhləvi - Nizami Gəncəvinin ilk böyük ardıcılı, fars dilində yazıb-yaratmış türk oğlu klassik hind ədəbiyyatının da, musiqisinin də banisi sayılırsa, modern çağa keçid dövründə həyata qədəm qoymuş Rabindranat Taqoru da yeni Hindistanın mənəvi atası saya bilərik. Təsadüfi deyil ki, bu ölkənin himninin sözü də, musiqisi də onun qələmindən çıxıb. Təkcə bu faktın özü eşidənlərə az şey demir.

Böyük sənətkar ta gəncliyindən ictimai işlərdən də uzaq düşməyib, Hindistanın sosial-siyasi həyatına heç vaxt biganə qalmayıb. Bu kiçik yazıda onun fəaliyyətinin bütün yönlərinə toxunmaq, xalqının maariflənməsi, ölkəsinin ingilis əsarətindən qurtulması uğrunda gördüyü işləri sadalamaq imkanımız olmadı. Yalnız bunu vurğulamaq istərdik ki, Taqorun öz vətəninin, millətinin həyatında tutduğu yer, oynadığı rol bircə böyük istedadın, bircə parlaq zəkanın bir xalqın taleyinə necə yön verdiyinə, onun ruhunu necə səfərbər elədiyinə, onu özünə necə tanıtdığına daha bir gözgörəti sübutdur.



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Qasid” MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
“Türküstan Media Group” MMC – 050 241-48-23
“Region Press” MMC – 055 316-79-01
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



## *Şənbə üçün nəzm...*

Neçə şeir doğulsa da,
Neçə kitab yazılsa da,
Bu eşq üçün ağıdır.
Qalaq-qalaq xatirələr,
ürəyimə lövbər atıb,
ruhumu lap ağrıdır.
Bu şəhər tam başqa idi,
Damağımda dadı qalıb.
Ha gəzirəm qarış-qarış küçələri,
Hanı “Bakı Gecələri”?
Elə belə adı qalıb.
Naz edəcək vaxtım deyil,
Əl çək Xəzri küləyi.
Daha heç nə sevindirməz,
Daha heç kəs ovutmaz ki,
Daş olmuş bu ürəyi.
Yatammıram, inanırsan?
Gecə saat 5-də belə oyağam.
Hər nədisə sürün-sürün
yaşayıram, hələ sağam.
Bu sarmaşıq yollarımı,
öz qurumuş əllərimlə cızmışam.
Tapammıram...
indi özüm, öz içimdə azmışam.
İndi bildin biz tərəfdə
səhər niyə açılmır,
Günəş niyə qaradır?
İndi bu qız şair olub,
şeir yazır,
söz oynadır,
hekayələr yaradır.

***

Uzanır aramızda şəhərlər, yollar bunca,
Gecə yuxu görürdüm,
Tanış bir səs deyirdi:
“Ağla gözəl, ağla....ağla doyunca.
Sən gedəli, əllərim göyə qalxıb,
enməyəcək daha ömür boyunca.
Həmin gündən üzüm ağdır,
Yeddi fəslin payızına, qışına.
Nənəm deyir: Mənim balam
tuş gəlmisən bir nadan qarğışına.
O vaxt ömür elə gözəl keçirdi,
Biz bir kitab oxumuşduq,
Yadındadı “Tatar Çölü”?
Orda ümid axı sonda ölürdü.
Kim eşidər ha deyir ki, səbr eləyib dözərsən,
Gəl sənə yaşa bu ömrümü,
Tanrı haqqı bezərsən.
Rəfimiz dağınıqdır, elə mənim beynim kimi,
Xatirələr qarışıb toz içində.
Bayaq yuxu danışdım, mən yozmuşam,
bir dəfə yoz özün də.

***

O şəhər də mənim idi,
o dəniz də,
yaşadığın o küçə də.
Nə dəyişdi bir gecədə?
Biz, biz olsaq bu dərd bizi tapardımı?
Xəzərə baxıb pıçıldayan arzuları
qağayılar apardımı?
Səmaya bax,
pəmbə-pəmbə buludlar da siyah olur.
Göy düşsün başıma mənim,
Mən bilmirdim belə sevmək günah olur.
Qəza idin həyatımda
Ölmədim ki...
Qurban olum yaşamaq da belə olmur.
Yordu, yordu bu yol məni,
yenə yola sarılmışam.
Bəhanələr məndə qalsın,
səni deyib gəlmirəm ki,
o şəhərçün,
o dənizçün,
o küçəyçün darıxmışam.



**Havar Şəfiyeva**

# Gözlərinizi qoruyun!

## Ümumdünya Görmə Günüdür...

Gözlərimiz ən vacib orqanlarımızdan biridir. İlk baxışda sadə görünən bu orqan əslində, çox mürəkkəb quruluşa, bir-biri ilə bağlı olan ayrı-ayrı hissələrdən ibarətdir. Təəssüf ki, bir çox hallarda onun qeydinə qalmaq əvəzinə daha da zəiflədirik. Mütəxəssislər televizor, telefon və kompüter qarşısında mümkün qədər az zaman sərf etməyi, boş vaxtları açıq havada gəzməyi məsləhət görürlər.

Hər il oktyabrın ikinci cümə axşamı Ümumdünya Görmə Günü kimi qeyd edilir. Bu gün Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) təşəbbüsü ilə təsis edilib və görmə qabiliyyəti tam məhdud olanların, görmə pozuntuları və zəifliyi olanların problemlərinə ictimai diqqəti cəlb etmək üçün təqvimə salınıb.

**19 milyondan çox insan...**

ÜST-ün məlumatına görə, dünyada təxminən 2,2 milyard insan görmə qabiliyyətindən məhrumdur. Göz xəstəliklərindən əziyyət çəkənlərin sayı isə 19 milyondan çoxdur. Görmə qüsuru olanların 82 faizinin yaşı 50-dən yuxarıdır. Son illərdə bir çox ölkədə yaşlılar arasında görmə qabiliyyətini itirənlərin sayı daha çoxdur. Lakin vaxtında müalicə edilməklə korluq hallarının əksər hissəsinin qarşısını almaq olar.

**Görmə zəifliyinin səbəbləri**

Görmənin zəifləməsi həyat keyfiyyətinə ciddi şəkildə təsir edən bir problem olmaqla yanaşı, fərqli səbəblərə əsaslanır. Müasir dövrdə texnologiyadan geniş istifadə gözlərin yorulmasına və hətta görmə itkisinə səbəb ola bilər. Bu proses təkcə yaşla bağlı deyil, eyni zamanda, həyat tərzimiz, iş şəraitimiz və genetik amillərlə də əlaqədardır. İnsanlar görmə zəifliyi ilə üzləşdikdə bu problemi aradan qaldırmaq üçün müxtəlif yollar axtarırlar, lakin bunun səbəblərini başa düşmək çox vacibdir.

Görmə zəifləməsinin səbəblərindən biri də genetik faktorlar və irsi amillərdir. Əgər ailə üzvlərində, xüsusilə valideynlərdə göz xəstəlikləri varsa, bu övladların da eyni problemləri yaşaması üçün risk yaradır.

**Texnologiyanın gözlərə təsiri**

Texnologiyanın inkişafı həyatımızı asanlaşdırsa da, uzun müddət ekran qarşısında vaxt keçirmək göz sağlamlığı üçün zərərlidir. Kompüter, telefon və televizor kimi cihazların istifadəsi zamanı gözlərimiz yorulur, bu da görmə zəifliyinə səbəbdir. Xüsusilə, rəqəmsal ekranların yaydığı mavi işıq göz retinasına ziyan vurur və zamanla görmə qabiliyyətini zəiflədir. Bu vəziyyət kompüter görmə sindromu adlanan vəziyyətin yaranmasına gətirib çıxara bilər.



Mütəxəssislər ekran qarşısında olan zaman hər 20 dəqiqədən bir 20 saniyə ərzində uzağa baxmağı tövsiyə edirlər ki, gözlər dincəlsin. Bu müddət ərzində göz qapaqlarının hərəkəti artırılmalı və gözlər nəm saxlanılmalıdır.

**Düzgün qidalanmama və vitamin çatışmazlığı**

Göz sağlamlığı üçün düzgün qidalanma çox vacibdir, çünki bir çox vitamin və minerallar gözlərin normal fəaliyyət göstərməsi üçün lazımdır. A vitamini göz sağlamlığı üçün ən vacib vitaminlərdən biridir və onun çatışmazlığı gecə görmə zəifliyinə səbəb ola bilər.

**Stress və yuxusuzluq**

Stress və yuxusuzluq müasir həyatın ən çox rast gəlinən problemlərindən biridir və göz sağlamlığına da mənfi təsir göstərir. Uzun müddətli stress göz əzələlərinin gərginləşməsinə, göz təzyiqinin artmasına və nəticədə görmə zəifliyinə səbəb ola bilər. Yuxusuzluq isə gözlərin dincəlməsinə mane olur və zamanla göz quruluğu, baş ağrıları və görmə qabiliyyətinin zəifləməsinə yol açır.

**Gözlərə mexaniki zərbələr**

Gözlərə olan mexaniki zərbələr və travmalar da görmə zəifləməsinin səbəblərindən biridir. Bu cür zədələr idman zamanı, sənaye işlərində və ya sadəcə, təsadüfi qəzalar nəticəsində baş verir. Göz travmaları nəticəsində gözün daxili strukturları zədələnir və bu da bəzən tam görmə itkisinə gətirib çıxara bilər.

**Yaşlanma...**

Yaşlanma insan bədəninin hər bir orqanına təsir etdiyi kimi, gözlərə də ciddi təsir edir. İnsan yaşlandıqca gözlərin elastikliyi azalır və bunun nəticəsində görmə qabiliyyəti zəifləyir. Bu problem 40 yaşdan yuxarı insanlarda daha çox müşahidə olunur.

Son statistikaya görə, ölkəmizdə 172, 7 min nəfər göz xəstəliklərindən əziyyət çəkir. Onların 32, 8 mini 13 yaşadək, 46, 3 mini isə 18 yaşınadək olanlardır.

***Yeganə BAYRAMOVA***




## “Nar” və NETTY ilin ən yaxşı internet təşəbbüslərini mükafatlandıracaq

Sərfəli qiymətləri ilə tanınan mobil operator “Nar” Azərbaycanda təhsil, informasiya və kommunikasiya texnologiyaları sahəsində irəli sürülən layihələrə dəstək olmaq məqsədilə “NETTY” mükafatı ilə ənənəvi əməkdaşlığını davam etdirir. Bu gündən etibarən, müsabiqədə qeydiyyat netty.az/az/registration səhifəsi üzərindən açıq elan edilir.

Elm, təhsil və innovasiya, səhiyyə, idman və turizm, məlumat və xəbərlər kimi geniş spektri əhatə edən 9 nominasiyada vebsaytlar, tətbiqlər və sosial media layihələri müsabiqədə iştirak üçün təqdim edilə bilər.

Qeyd edək ki, hər il “Nar”-ın baş tərəfdaşlığı ilə keçirilən “NETTY” Milli İnternet Mükafatı 20 ilə yaxındır ki, internetin Azərbaycan seqmentində həyata keçirilən müxtəlif layihələri tanıdır və mükafatlandırır. “NETTY” mükafatı ilə tərəfdaşlıq “Nar”ın Korporativ Sosial Məsuliyyət strategiyasının təhsil və maarif istiqamətinə uyğun olaraq həyata keçirilir. “Nar”ın KSM layihələri haqqında daha ətraflı nar.az səhifəsindən öyrənə bilərsiniz.

Hazırda 2,2 milyon abunəçiyə yüksəkkeyfiyyətli rabitə xidmətləri göstərən “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# *İdman*

## Azərbaycan ilk dəfə basketbol üzrə Dünya Kubokunun seçmə oyunlarına ev sahibliyi edəcək

Azərbaycan ilk dəfə 3x3 basketbol üzrə Dünya Kubokunun seçmə mərhələ oyunlarına ev sahibliyi edəcək.

Azərbaycan Basketbol Federasiyasından (ABF) AZƏRTAC-a verilən məlumata görə, ABF və Beynəlxalq Basketbol Federasiyası (FIBA) arasında imzalanmış müqaviləyə əsasən, 2025-ci ildən təşkil olunacaq seçmə mərhələ matçları ölkəmizdə keçiriləcək.

Mayın 24-25-də Bakıda baş tutacaq seçmə mərhələ oyunlarında 6 kişi və 6 qadın yığması əsas mərhələyə vəsiqə uğrunda mübarizə aparacaq.

Turnirdə kişilərdən və qadınlardan ibarət Azərbaycan milli komandaları da iştirak edəcək.



Qeyd edək ki, kişi və qadın kateqoriyalarında seçmə mərhələ oyunlarının ən yaxşı 3 kollektivi Dünya Kubokunun əsas mərhələsində iştirak hüququ qazanacaq.

## Gənclər və İdman Nazirliyində Məsut Özillə görüş keçirilib

Gənclər və İdman Nazirliyində ölkəmizdə səfərdə olan professor İrfan Gündüzü və rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş olub.



Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, gənclər və idman naziri Fərid Qayıbov Almaniya yığmasının Türkiyəəsilli sabiq üzvü, dünya çempionu Məsut Özilin də daxil olduğu nümayəndə heyətinə Azərbaycanın idman sahəsində gördüyü işlər və qazandığı uğurlar barədə məlumat verib.

Görüş zamanı idman sahəsində ikitərəfli əlaqələr müzakirə edilib, uşaq futbolunun inkişafı barədə fikir mübadiləsi aparılıb.

## Misli Premyer Liqasının üç klubu cərimələnib

AFFA İntizam Komitəsinin növbəti iclası keçirilib.

AZƏRTAC AFFA-nın rəsmi saytına istinadən xəbər verir ki, iclasda Misli Premyer Liqasının IX turunda qeydə alınan qayda pozuntularına hüquqi qiymət verilib.




“Səbail” - “Şamaxı” oyununda qonaqların 4 futbolçusu sarı vərəqə aldığına görə klub 700 manat cərimə edilib. Həmin matçda bölgə təmsilçisinin üzvü Brahim Konate ikinci sarıdan qırmızı vərəqə aldığı üçün 1 oyun cəzalanıb və komandasını 500 manat ziyana salıb.

“Turan Tovuz” - “Zirə” və “Sumqayıt” - “Qarabağ” matçları zamanı ev sahibi komandaların azarkeşləri tərəfindən meydançaya kənar əşya atıldığına görə klubların hərəsi 800 manat cərimələnib.




## “Bakcell”in baş icraçı direktoru “INMerge” İnnovasiya Sammitində çıxış edib

İnnovasiya və sürət lideri “Bakcell”in tərəfdaşı olduğu “INMerge” İnnovasiya Sammiti uğurla davam edir. Tədbirin ilk günündə “Bakcell”in baş icraçı direktoru Klaus Müller “Aparıcı telekom şirkətlərinin uğurlu strategiyaları” adlı panel müzakirəsinə qatılıb.

Tədbirdə Klaus Müller ilə yanaşı, “Vodafone Group”un regional direktoru Yohannes Hummer, “GSMA”nın strateji əlaqələr üzrə direktoru Tair İsmailov və “Silknet”in İT direktoru Cheibanny Nagi də iştirak edib. Sessiyada çıxışı zamanı Klaus Müller “Bakcell” həyata keçirdiyi innovativ layihələr və məhsullar, gələcək planlar, həmçinin şirkətin “Vodafone Group”la olan strateji tərəfdaşlığının əhəmiyyəti barədə ətraflı məlumat verib. Bildirilib ki, “Bakcell” və “Vodafone Group” arasında əməkdaşlıq ölkəmizdə abunəçilərə süni intellekt əsaslı innovativ həllər və texnologiyalar təqdim etməyə imkan verəcək. Qeyd olunub ki, “Vodafone Group”la əməkdaşlıq çərçivəsində artıq “Bakcell” Azərbaycanda ilk dəfə süni intellekt əsaslı tarif məsləhətçisini istifadəyə verib. İştirakçılara “Bakcell”in “Kapital Bank” və “Uber”lə birgə həyata keçirdiyi layihələr barədə məlumatlar təqdim olunub.

Bundan əlavə, “Bakcell” “INMerge” İnnovasiya Sammitində olan stendi qonaqların böyük marağına səbəb olub. Ziyarətçilər stenddə “Bakcell”in ultrasürətli şəbəkəsini sınaqdan keçirib, virtual reallıq (VR) texnologiyası, şirkətin müxtəlif məhsul və xidmətləri ilə tanış olublar.

Tədbir çərçivəsində, həmçinin “Bakcell”in süni intellekt dəstəkli çat-botu təqdim edilib.

Qeyd edək ki, oktyabrın 10-11-i tarixlərində keçirilən “INMerge” İnnovasiya Sammitinin məqsədi innovasiya ekosisteminin inkişafına töhfə vermək, startaplar və investorları bir araya gətirərək onlara əməkdaşlıq üçün fürsət yaratmaq, eləcə də innovasiya ekosisteminin bütün iştirakçıları arasında fikir və təcrübə mübadiləsi üçün platforma qurmaqdır.

**“Bakcell” haqqında**

“Bakcell” Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda “Bakcell” üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

“Bakcell” müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4809**
**Sifariş: 2341**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Elbrus Cəfərli